HÜQUQİ, DEMOKRATİK DÖVLƏT QURAN, DAĞ VÜQARLI, DOĞMA AZƏRBAYCANIMIZIN YÜKSƏLİŞİ NAMİNƏ!



# Babadağ

Həftəlik İctimai-siyasi və hüquqi qəzet № 42 (049) 17-24 noyabr 2001-ci il qiyməti 1000 manat

17-noyabr Azərbaycan xalqının Milli Dirçəliş günüdür. Bu münasibətlə xalqımıza müstəqillik yolunda qətiyyət, dözüm və möhkəm iradə arzulayırıq.

"Babadağ"

## Cənubi Azərbaycan məsələsi dünya siyasətinin həll olunmamış və açıq qalan məsələsidir.

Azərbaycan dövlətinin xarici siyasətində İran özünəməxsus yer tutur. Böyük tərəddüdlərdən sonra on il əvvəl Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan, az sonra bu ölkə ilə diplomatik münasibətlər yaradan İranda Azərbaycanın dövlət müstəqilliyinə birmənalı münasibət bu gün də mövcud deyildir. Xalqımız dövlət müstəqilliyini elan etdikdən beri İranla münasibətlər dövlətimizin xarici siyasətinin mübahisəli məsələlərindən birinə çevrilmiş və bu gərginlik bu gün özünün kulminasiya zirvəsinə yüksəlməyində davam edir.

☞ səh. 3



### Bu sayımızda

## LAQEYDLİK BİZİ HARA APARIR?



*Hər dövlətin özünəməxsus problemləri var. Ən qlobal problem isə gələcəyimiz sayılan uşaqların məktəbdən, təhsildən yayınması, normal yaşayış tərzindən məhrum olması və sonda onların facia ilə nəticələnə biləcək taleyidir. İndi məmləkətimizdə valideyn qayğısından məhrum, dövlət nəzarətindən kənarda qalan bu balaca tifillərin "küçə həyatı" heç kimi maraqlandırmır.*

☞ səh. 12



## 907- dünən və bu gün

☞ səh. 3

## ÖZƏLLƏŞDİRMƏNİN HƏLLEDİCİ, STRATEJİ MƏRHƏLƏSİ



☞ səh. 7



## MÜSTƏQİL RESPUBLİKAMIZIN KİTABXANA SİSTEMİ MÜASİRLİYƏ KEÇİD MƏRHƏLƏSİNDƏDİR

☞ səh. 9

## HƏQİQƏT ÇİRKABI SEVMİR VƏ YA ÇİRKABA BATMIŞ HƏQİQƏT

### QUBA REALLIQLARI ƏDALƏT GÜZGÜSÜNDƏ

"İdeal" qəzetinin 17.10.2001-ci, 21.10.2001-ci, 14.11.2001-ci il tarixlərində getmiş tənqidi, Quba rayon əhalisiinn şəxsiyyətinə, mənliyinə toxunulası ifadələrlə dolu silsilə yazılarla əlaqədar olaraq, bir jurnalist maraq və heyrətindən doğan hisslərlə həmin redaksiyaya yollandım.



☞ səh. 5-6

## AZƏRBAYCAN MİLLİ KREDİT İTTİFAQI



**● İlk kredit ittifaqı 130 il əvvəl Almaniyanın Bavariya şəhərində kiçik qəsəbənin meri Friedrelh Ralffensen tərəfindən yaradılıb. O, öz dövründə ətrafında müəyyən vəsaiti olan adamların pullarını bir yerə toplayaraq, öz üzvlərinin maliyyə ehtiyaclarını ödəmək üçün borc verə bilmək üçün əmanət kooperativi şəklində bir qurum yaratmışdı.**

☞ səh. 7

### ANONS

- ✔ Şəkiyə e`zam olunmuş müxbir yediyi kolbasa mə`mulatından niyə zəhərlənmişdir?
- ✔ Həmin kolbasa mə`mulatını istehsal edən kimlərdir?
- ✔ Şəkidə bə`zi ticarət obyektlərində satılan məhsullara niyə çek verilmir?
- ✔ Gecə saat 11-12 radələrində ezamiyyətdə olan jurnalist təzyiqə məruz qaldı. Təzyiqi göstərən kimlər idi? Şəki rayonunun hüquq - mühafizə orqanları bu barədə nə qərara gəldilər?
- ✔ Bütün bunlara cavabdeh təşkilatlar niyə nəzarət etmirlər?
- ✔ Şəkidə poçt idarəsi var...
- ✔ Abşeron rayon Saray qəsəbəsindən gələn səslər...
- ✔ Həqiqət çirkabı sevmir və ya çirkaba batmış həqiqət.
- ✔ Quba olayları!

Bütün bunlar barədə daha ətraflı gələn saylarımızda!

# AZƏRBAYCAN DÖVLƏTİNİN GƏLƏCƏK MÜQƏDDƏRATI AZƏRBAYCAN XALQININ ÖZ ƏLİNDƏ OLMALIDIR

*SSRİ-nin bünövrəsinin laxlanması keçmiş respublikalarda (əyalətdə) milli azadlıq hərakatının vüsət alması nəticəsində XXI əsrin sonlarında imperiya süqut etdi, keçmiş SSRİ xalqları öz müqəddaratını həll etmək imicini qazandı, bir-birinin ardınca keçmiş müttəfiq respublikalar öz müstəqil dövlətlərini qurmağa başladılar. Keçən əsrin 80-cı illərinin sonu 90-cı illərin sovetlər məkanında yaşayan xalqların, eləcə də SSRİ-nin təsir sferasında olan digər xalqların milli tarixi oyanış dövrü kimi qiymətləndirilməlidir.*



Eldar Bəylərəoğlu

Öz milli mentalitetinə, dini təfəkkürünə və digər xüsusiyyətlərinə görə digər xalqlardan əsaslı surətdə fərqlənən azərbaycanlılar onsuz da həmin əsrin əvvəllərində də azadlıq, istiqlaliyyət uğrunda mübarizə aparmış, hətta 1918-ci ildə müstəqil Azərbaycan Cümhuriyyətini yaratmağa müvəffəq olmuşdur. Düzdür, M.Ə.Rəsulzadənin başçılıq etdiyi çağdaş Azərbaycan dövləti bütün çətinliklərə, xarici təcavüzlərə, daxili çəkişmələrə baxmayaraq 23 ay müstəqil dövlətçiliyini qoruya bilmişdir. Fəqət 1920-ci ildə bolşevik Rusiyasının birbaşa təcavüzü erməni daşnaklarınıq separatizmi və bəzi daxili qüvvələrin səbatsızlığı nəticəsində hələ möhkəmlənməyə macal tapmamış Azərbaycan Cümhuriyyəti süquta yetirildi, Azərbaycan məcburən bolşevik Rusiyası, sonra Sovet böyunduruğu altına keçirildi və azərbaycan xalqı 70 il sovet rejimində yaşayıb yaratmağa məhkum edildi. Yalnız XX əsrin son on illiklərində Azərbaycan xalqı apardığı milli azadlıq mübarizəsi və imperiyanın laxlanması nəticəsində 1991-ci ildə öz müstəqil dövlətçiliyini bərpa etdi. Bu baxımdan 91-ci ildəki hadisələri dövlət müstəqilliyimizin bərpası kimi də qiymətləndirmək olar.

Azərbaycanın dövlət müstəqilliyi yuxarıda qeyd etdiyimiz kimi 10 il öncə 18 oktyabr 1991-ci tarixində "Azərbaycan dövlət müstəqilliyi haqqında" Konstitutsiya aktının qəbul edilməsi ilə başlandı və bu gün də ölkəmiz müstəqillik yolu ilə addımlayır. Bu on il heç də rəvan, düz keçməmişdir, heç də hər şey xalqımız istədiyi kimi olmamışdır, səhflərsiz, çətinliklərsiz, faciələrsiz ötüşməmişdir: Çoxsaylı günahsız insan itkilərimiz olub, torpaqlarımızın bədxah qonşularımız tərəfindən işğalına məruz qalmışıq, hələ bu gün də Azərbaycan dövlətinin suverenliyi ərazisində həyata keçirilmir. Dağlıq Qarabağ ətraf bölgələr (Laçın, Qubadlı, Zəngilan, Ağdam, Cəbrayıl, Kəlbəcər, Füzuli rayonlarının ərazisi) de-fakto erməni torrorizminin nəzarəti altındadır. 100 minlərlə soydaşlarımız öz tarixi vətənlərindən, yurd-yuvalarından didərgin düşmüşdür. Üstəgəl dövlət müstəqilliyimizin ilk illərində səriştəsiz rəhbərlərin idarəçilikdə hərc-mərcliyi cəmiyyətdə cinayətkar qüvvələrin mənəm-mənəmliyi və ölkədə sabitliyin olmaması, vətənimizin qorunması, torpaqlarımızın düşmən işğalından qurtulması üçün lazımlı övladlarımızın müstəqil azad Azərbaycanda yaşayıb-yaratmalı, oğul-qızlarımızın acınacaqlı, faciəli taleyi. Bu gün isə dövlətçiliyimizin təməlinin möhkəmləndirilməsinə ölkədə sabitliyin müəyyən mənada təmin edilməsinə, iqtisadiyyatda bir sıra irəliləyişlərə baxmayaraq, ümumilikdə iqtisadiyyatımızdakı çətinliklər cəmiyyət üçün zəruri qanunların vaxtında qəbul edilməməsi, korrupsiyanın ağlasığmaz dərəcədə genişlənməsi, məmur özbaşınalıqları mövcud qanunların ilk növbədə vəzifəli şəxslər tərəfindən pozulması və beləleri haqqında ciddi ölçülərin götürülməməsi, cəmiyyətdə təbəqələşməyə, yuxarı təbəqələrdə cəzasızlıq şəraitinin yaranması cəmiyyətdə haqqın ədalətin tapdalanmasına xalqın güzəranının pisləşməsimnə ayrı-ayrı mafioz qruplaşmaların yenidən cücərməsinə gətirib çıxarıb.

**Ardı gələn sayımızda.**

**✔ Noyabrın 16-da Bakı Mətbuat Klubunda "İntibah" intellektual klubu Səfəvilər dövlətinin qurulmasının 500 illiyi münasibəti ilə yaratdığı "Şah İsmayıl Xətai: Böyük xalqın böyük tarixi" internet saytının təqdimat mərasimini keçirdi. Klubun sədri Nəcəf Allahverdiyev internet saytı barəsində KİV nümayəndələrinə məlumat verdi: "Şax İsmail Xatai. Narod.ru" ünvanında yerləşən sayt hələ ki, ictimaiyyətin ixtiyarına rus dilində verilir. Klubun sədri saytın ilk olaraq rus dilində hazırlanmasını bu dildə olan oxucu kontingentinin çoxluq təşkil etməsi ilə əlaqələndirdi və yaxın gələcəkdə bu saytın azərbaycan və ingilis dillərində hazırlanacağını bildirdi.**

# Ş.İ.XƏTAİ HAQQINDA SAYT AÇILIB

Səfəvilər dövlətinin qurucusu Ş.İ.Xətainin portreti ilə açılan sayt onun hakimiyyəti haqqında, o dövrkü Azərbaycan mədəniyyətindən, miniatür sənətinin inkişafından, eləcə də Xətainin şəcərəsi haqqında geniş informasiyalardan ibarətdir. Burada XVI əsrin əvvəllərində Azərbaycan miniatür sənətinin banisi Sultan Məhəmməd və bu dövrün görkəmli miniatürçülərinin 65 əsərindən ibarət qalereyaya geniş yer verilib. Bu ünvana daxil olan hər kəs Səfəvilər dövlətinin ictimai-siyasi həyatda oynadığı rol barəsində məlumatla tanış ola, bu dövrdə Azərbaycana məxsus 114 min kv.km.-lik ərazi əks olunmuş Azərbaycan xəritəsini görə bilərlər. Saytın üstünlüyü ondadır ki, burada Xətai haqqında yalnız Azərbaycanda deyil, başqa ölkələrdə yazılmış materiallara, tarixi əsərlərə geniş yer verilib. Azərbaycan dilində olacaq saytda buraya onun haqqında yazılmış bədii əsərlər də daxil ediləcək.

**E`tina Yusifli**

*1831-ci ildə İrəvan şəhərinin 18.766 nəfər əhalisinin 15.992 nəfəri. 1866-cı ildə 27.246 nəfərindən 23.626 nəfəri. və`ni 85.2 faizi azərbavcanlı olmuşdur.*

*Ermənistan Mərkəzi Statistika İdarəsi tərəfindən 1962-ci ildə nəşr olunmuş mə`lumat.*

*Ermənistanda olan 2310 kənddən iki minindən çoxunda azərbaycanlılar yaşavırdı. XIX əsrin əvvəllərində İrəvanda vaşavan on min nəfər əhalinin veddi min nəfəri azərbavcanlı idi. 49 bəy. sultan və məlikdən 41-i azərbavcanlı olub. İrəvan xanlıqını idarə edən 49 nəfərin hamısı azərbavcanlı idi. Erməni alimi Zaven Korkodvanın 1932-ci ildə İrəvanda nəşr etdirdivi "Sovet Ermənistanının əhalisi 1831-1931" adlı statistik məlumat kitabından. səh. 162*

*İrəvanda 1827-ci ildə 2400 ailə. 12 min nəfər vaşamışdır. Şəhər qalası ruslar tərəfindən alınandan sonra yerli kübar azərbaycanlı ailələrinin bir qismi İrana köçmüş. ermənilər isə İran və Türkivədən burava köçürülmüşlər. 1828-ci ildə əhalinin milli tərkibi belə olmuşdur: azərbaycanlılar - 1807 ailə. 7331 nəfər. ermənilər 567 ailə. 2369 nəfərdən artıb 4132 nəfər olmuşdur. Burada 4 xan 41 bəv və sultan ailəsi (azərbavcanlı). cəmi 8 məlik və ağalar (erməni) vaşavırdı. 50 axund və molla. cəmi 13 keşiş vardı.*

**Erməni tarixçisi Q.Şahəziz**

# ERMƏNİLƏR ÖZLƏRİ HAQQINDA

"Daşnaklar 1918-ci ildə əllərindən alınmış Qars vilayətini, İrəvan quberniyasının bir hissəsini müttəfiqlərdən alaraq Ermənistanın ərazisini 17 min 500 ingilis kv. milinə (1 ingilis mili 25,4 mikrometrdir), əhalisini 1 mln. 510 min nəfərə (575 min müsəlmanlar, 795 min ermənilər, 140 min başqa millətlər) çatdırdılar. Onlar bununla kifayətlənməyib Gürcüstan SSR ərazisinə daxil olan Axalkalaki və Borçalını, Azərbaycan SSR tərkibində olan Qarabağ, Naxçıvan diyarını və b. Yelizavetpol quberniyasının cənub hissəsini tələb edirdilər. Bu əraziləri zorla birləşdirmək cəhdi Zaqafqaziyarın ingilis işğalı dövründə (Gürcüstan, dekabr 1918) müharibəyə və Azərbaycanda uzunmüddətli və qanlı münaqişəyə gətirib çatdırdı ki, bunun da nəticəsində mübahisəli rayonların (adları göstərilmir - E.Y.) əhalisi 10-30 faiz azalmış, bir sıra kəndlər sözün əsl mənasında yerlə-yeksan edilmişdir.

**"Böyük Sovet Ensiklopediyası", I buraxılış, c. 3, s. 437.**

E.ə. 782-ci ildə I Argişti Arazı keçərək Erebuninin (İrəvanın) əsasını qoyub.

İrəvan adı ilk dəfə eramızın VII əsrindən erməni məxəzlərində görünüb. "Abrahamın çağırdığı yığıncaqda irəvanlı David də iştirak edirdi".

**"Girk txtotsi" sənədlər toplusu, səh. 151.**

Biz "hay"lar kiçik, azsaylı, zəif və çox hallarda özgələrinin hakimiyyəti altında yaşayan xalqıq.

**Moisey Xoranatsi, V əsr erməni tarixçisi.**

Erməni dili hibrid (calaq) dildir. O biri yandan erməni qəbiləsi də hibriddir. Urartu və başqa qonşuları assimilyasiya etmişdir.

**Akademik M.Aqanbekyan**

Mən ermənilərin sakin olduğu bir çox yeri gəzmişəm. Daima xalis ermənicə olan bir şey duymağa çalışmışam. Təəssüf ki, bu arzum indiyə qədər yerinə yetməmişdir

**M.Nalbandyan (şair)**

Qədim erməni tayfaları Zaqafqaziyada deyil, məhz yuxarı Fərat vadisində məskunlaşmışlar.

**"Erməni xalqının tarixi" kitabından**

Qarabağın dağlıq hissəsində yaşayan ermənilər Türkiyə və İrandan gəlmiş qaçqınlardır. Azərbaycan torpağı onlar üçün təqiblərdən və təhdidlərdən sığınacaq yeri olmuşdur.

**Erməni tarixçisi B.İşxanyanın "Qafqaz xalqları" kitabından.**

Mənə elə bir müasir dil məlum deyildir ki, yeni erməni dilinin qədim erməni dilindən fərqləndiyi qədər fərqlənsin. Heç bir dil mənim üçün qədim erməni dili qədər çətin olmamışdır.

**X.Abovyan**

Antik dövrdə ermənilərin əsl vətəni olan Böyük Ermənistan Kiçik Asiyada - yəni Rusiyadan xeyli kənarda yerləşirdi.

**Erməni tarixçisi B.İşxanyan**

Erməni xalqı üçün nə daimi dost, nə də daimi düşmən yoxdur. Onlar üçün ancaq mənafe var.

**Erməni tarixçisi Leon**

E.ə. VII-VI əsrlərdə meydana gələn hind-avropa xalqı olan ermənilərin gəlişindən qabaq, indi Ermənistan adlanan ərazidə Urartu mənşəli Koldis və ya . Xaldes xalqı yaşayırdı. Onların ölkəsi Urartu adlanırdı.

**Erməni tarixçisi H.Pastermaçanyan**

**Hazırladı: E`tina Yusifli**

# Cənubi Azərbaycan məsələsi dünya siyasətinin həll olunmamış və açıq qalan məsələsidir

**A**zərbaycan dövlətinin xarici siyasətində İran özünəməxsus yer tutur. Böyük tərəddüdlərdən sonra on il əvvəl Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan, az sonra bu ölkə ilə diplomatik münasibətlər yaradan İranda Azərbaycanın dövlət müstəqilliyinə birmənalı münasibət bu gün də mövcud deyildir. Xalqımız, dövlət müstəqilliyini elan etdikdən bəri İranla münasibətlər dövlətimizin xarici siyasətinin mübahisəli məsələlərindən birinə çevrilmiş və bu gərginlik bu gün özünün kuliminasiya zirvəsinə yüksəlməyində davam edir.



Həzi Zeynallı

*Azərbaycanın beynəlxalq aləmdə qazandığı hər bir uğuru qısqanclıqla qarşılayan İran hökumətinin bu münasibəti bu gün Azərbaycana qarşı siyasi addımlarda özünü açıq büruzə verir.*

*Bəs görəsən, Azərbaycanın müstəqilliyi ilə barışmayan, onun yüksəlməsini özünün məhvi kimi qəbul edən İran hökumətində bu narahatçılığa əsas nədir?!*

*Bütün bunlara aydınlıq gətirmək üçün XX əsrin əvvəllərindən bu günə kimi İran-Azərbaycan və Azərbaycan-İran diplomatik münasibətlərinin tarixinə qısa nəzər salsaq, görərik ki, bu iki dövlət arasında diplomatik münasibətlərin gərginləşməsinə səbəb həmişə İran tərəfi olmuşdur. Baxmayaraq ki, Azərbaycan həmişə İranla müxtəlif sahələrdə qarşılıqlı münasibətləri yaratmağa çalışmışdır. İran-İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayəti 1991-ci ildə Moskvaya səfəri zamanı keçirdiyi danışıqlardan sonra "Moskvanın səsi" radiostansiyasına verdiyi müsahibəsində birmənalı şəkildə bildirdi: "Biz Azərbaycanın müstəqilliyini tanımaq fikrində deyilik. Bu respublika ilə münasibətlərimiz Sovet İttifaqı çərçivəsində inkişaf etdiriləcəkdir".*

*İranın bu rəsmi mövqeyi də tarixi ən`ənəyə söykənirdi. Faktlara müraciət edək. 1918-ci ildə İstanbulda Azərbaycan Demokratik dövlətinin xarici işlər naziri Ə.Topçubaşovun İran elçisi Mirzə Mahmudxanla görüşündə İran elçisi şimali Azərbaycanda, Qafqazda və İranda türklərin yaşamasını inkar edərək hamısını fars adlandırırdı. O deyirdi "nəinki Azərbaycanda, heç Qafqazda, Təbrizdə də türk yoxdur, hamımızın babaları farsdır". Və çoxlu belə tarixi diplomatik misallar gətirmək olar. Həm birinci dəfə, həm də 90-cı illərdə İran öz istəyinə çata bilmədi və Azərbaycanın dövlət müstəqilliyini tanımağa məcbur oldu. Reallıq üstünlük yaratdı. Lakin diplomatik siyasi manevrlər və gizli niyyətlər bütün müsəlmançılığın dayağı kimi göstərən İran Azərbaycanı İsrail və ABŞ-la yaxşı münasibətlər qurmaqda və guya islam dininə xəyanət etməkdə günahlandırır. Bunun əksinə olaraq İranın özü Azərbaycan ərazilərinin 20 faizdən çoxunu işğal edən, bir milyon iki yüz min nəfərdən çox müsəlman azərbaycanlı qaçqına çevrilən İslam dininin müqəddəs yerlərini dağıdıb təhqir edən Ermənistanla hərtərəfli siyasi, iqtisadi, texniki, maliyyə və s. sahələrdə əməkdaşlıq edir.*



*Müsəlman xalqına qarşı soyqırımını həyata keçirən Moskva ilə Tehran məhriban münasibətlər saxlayır və onlar strateji müttəfiqə çevrildilər.*

*Azərbaycanın ABŞ-la əməkdaşlığına, xüsusən məlum neft konsorsiumuna qarşı çıxmaqla İran ABŞ-ın Qafqaza nüfuz etməsini öz mənafelərinə zərbə kimi qiymətləndirir.*

*Bu gün bunların təhlilindən belə bir sual ortaya çıxır: İranın Azərbaycana qarşı belə keskin mövqe tutmasının səbəbləri nədir? Başlıca cavab budur: İranda yaşayan xalqları vahid İran milləti, islam dini, ideologiya altında birləşdirməklə İranın dövlət bütövlüyünü qorumaq böyük dövlətlər tərəfindən kifayət qədər müsbət qarşılanmayan İran fundamentalizminin və ekstremizmin himayəçisi kimi tanınır.*

*Baxmayaraq ki, Azərbaycan diplomatiyasının atmaq istədiyi addım reallıqlara uyğun gəlməsə, onda İran ona düşmən olan dövlətlərlə yaxınlaşar və biz çətin vəziyyətə düşərik. Nəzərdən qaçırmamalıyıq ki, dünya diplomatiya tarixində daimi dostlar, daimi düşmənlər yoxdur, daimi mənafe vardır.*

*ABŞ da İran xalqı ilə deyil, bu ölkədəki rejimlə düşmən olduğunu bildirir. Bütün bunları nəzərə alaraq Azərbaycanın İran siyasəti mərkəzi və çevik olmalıdır. Bir başqa dövlətlərin İrana qarşı həyata keçirdikləri siyasətdə kor-korane alət olmamalıyıq, öz dövlət və milli mənafelərimizi əsas götürməliyik, əgər belə olarsa, biz dünya xalqlarına sübut etmiş olarıq ki, Cənubi Azərbaycan məsələsi dünya siyasətinin həll olunmamış və açıq qalan məsələsidir. Bunu yalnız Azərbaycan xalqı özü dərin düşünülmüş, uzaqgörən, çevik elmi konsepsiya və siyasətlə həll etməlidir. Vətənin cənub parçasındakı xalqımızda mənəvi birliyin formalaşması beynəlxalq hüquq normaları ilə qəbul olunmuş prinsiplərlə ziddiyyət təşkil etməməlidir. Bu İranın daxili işlərinə qarışmaq olmamalıdır. Birlik qanunauyğun olaraq cəmiyyətin içində formalaşmalı və təzahür etməlidir. Bu birliyin formalaşması üçün müxtəlif təşkilatlar, yaradıcı qruplar, qeyri-hökumət təşkilatları böyük məqsədyönlü iş apara bilərlər.*

# 907 - dünən və bu gün

**1992**-ci ildə Amerika Senatının Azərbaycana qarşı qəbul etdiyi ədalətsiz 907-ci maddənin (müvəqqəti) 25 oktyabr 2001-ci ildə dövlət katibinin birinci müavini Riçard Armitracın təşəbbüsü ilə müvəqqəti dayandırılması artıq hamıya məlumdur. "Azadlığa dəstək aktı" adı ilə tanınan bu düzəlişdə əksinə olaraq, işğalçı dövlət kimi Ermənistan yox, Azərbaycan göstərilmişdir. Əlbəttə, belə bir şərait erməni lobbisinin Amerika Senatına göstərdiyi təsir nəticəsində formalaşmışdır.

Azərbaycan diplomatiyasının uğurlu fəaliyyəti sayəsində "907"nin müvəqqəti dayandırılması sevindirici hal olsa da, belə bir vəziyyətdə Azərbaycan torpaqlarının geri qaytarılması haqqında fikir söyləmək hələ çox tezdir. Çünki əvvəla düzəliş ləğv edilməyib, müvəqqəti dayandırılıb, bu isə o deməkdir ki, istənilən vaxt həmin düzəliş qüvvəyə minə bilər (təbii ki, Azərbaycanın ziyanına).

2-cisi ona görə ki, müvəqqəti dayandırılma zamanı qoyulan əsas şərtlərdən biri budur ki, Amerika tərəfdən Azərbaycana göstəriləcək yardım, dövlətin sərhədlərinin möhkəmləndirilməsinə istifadə olunmalıdır və heç bir vəchlə bu yardım Ermənistana qarşı yönəlməməlidir.

1992-2001-ci illər göstərilən humanitar yardım baxımından az müddət deyil, 9 il. Bu illərdə Ermənistan Amerikadan 10 milyonlarla dollar məbləğində yardım alırdı. Təsəvvür edin ki, bir o qədər məbləğdən Azərbaycan məhrum olmuşdur. Yəni belə bir hal Ermənistana müsbət, Azərbaycana isə mənfi təsir göstərirdi.



Bu məsələ ilə bağlı Azərbaycan diplomatiyası öz məqsədinə tam nail olmaq üçün daha intensiv işlər görməlidir. Belə ki, düzəlişin ləğvinə nail olmaq, yaxud da onun Ermənistana qarşı yönəlməsi üçün bütün imkanlardan istifadə etməlidir.

Belə olan təqdirdə haqq-ədalət öz yerini tapmış olar.

**Kamil Heydərov**
**Ali Diplomatiya Kollecinin 4-cü kurs tələbəsi**

# "BABADAĞ" QƏZETİNİN BAŞ REDAKTORUNA

## QUBA RAYONUNUN BİR QRUP SAKİNİ TƏRƏFİNDƏN

## MÜRACİƏT

**Hörmətli baş redaktor!**

Əziz redaksiya!

Bizim Sizə müraciət etməyimizin əsas səbəbi qəzetinizin çox müqəddəs ziyarətgah təkcə qubalılar üçün deyil, əksər azərbaycanlılar üçün də doğma və pak yer sayılan təmiz, vüqarlı Babadağının adını layiqlə daşıması və qəzetinizin səhifələrində vətənpərvər, aktual, obyektiv və qərəzsiz yazıların dərc edilməsidir.

Biz qubalılar Sizin qəzeti diqqətlə izləyirik və maraqla oxuyuruq. Bu gün isə müraclətimizi dərc etməyinizi xahiş edirik.

Hamıya yaxşı məlumdur ki, respublikamız müstəqillik əldə edəndən sonra xalqımız, dövlətimiz bir çox çətinliklərlə üzləşmişdir. İlk illər dövlətdə səriştəsiz adamların, qarışıqlıqdan və xalqın inamından sui istifadə edərək rəhbər vəzifələr tutması, dövləti idarə edə bilməməsi və bu səbəbdən 1990-1993-cü illərdə ölkədə yaranmış hərc-mərcliklər, stol davaları üstündə torpaqlarımızın işğalı və düşməsi ermənilər tərəfindən həmvətənlərimizin başlarına açılan oyunlar, onlara olmazın qəddarlıqla əzab-işgəncə verilməsi üzündən onların doğma yurd-yuvalarından didərgin düşmələri, milyondan yuxarı qaçqının olması, azərbaycanlı qocaların, qaçqınların, qız-gəlinlərin, uşaqların əsir düşməsi, cavanlarımızın şəhid və əlil olması, ölkədə sabitliyin olmaması daima qorxu, səksəkə içərisində yaşamağımız həmin illərdə üzləşdiyimiz ağır bəlalardır.

Bu hələ belə davam edəcəkdi. Dövlətimiz parçalanmaq təhlükəsi ilə üzbəüz qalmışdı. nə yaxşı ki, Ulu Tanrının bizə yazığı gəldi, müdrik rəhbərimiz, dünya səviyyəli siyasətçi Heydər Əliyev cənabları xalqın sözünü yerə salmadı, yenidən Bakıya qayıtdı, dövləti dağılmağa, xalqı parçalanmağa qoymadı, vətəni ciddi təhlükədən xilas etdi, ağır cinayətkarları yerində oturtdu, gecəni gündüzə qataraq, gərgin və təmkinli əməyi bahasına Allahın köməyi və xalqın dəstəyilə, biz ağsaqqalların xeyir-duası ilə təhlükəni sovuşdura bildi, ölkədə sabitliyi yaratdı və Azəbaycan xalqının ümidlərini özünə qaytardı. Düzdür güzəranımız hələ ki, istədiyimiz kimi deyil, dolanışığı hələ çətin olanlarımız da var. Amma iqtisadiyyatımız gün-gündən yaxşılaşır, yaxşı yaşamağımız üçün geniş üfüqlər açılır. Bütün bunlar möhtərəm prezidentimiz, xalqın bu gün yeganə ümidgahı Heydər Əliyev dühası sayəsndə mümkün olmuşdur.

Bu həqiqəti xalq, xüsusən ağsaqqallar, zəhmət adamları yaxşı başa düşür. Bu haqda mətbuat səhifələrində də oxuyuruq, xoşhallanırıq.

Amma çox təəssüflər olsun ki, aramızda düşmənlərimizin dəyirmanına su tökən, müstəqiliyimizə paxıllığı tutan, Heydər Əliyevin əməyini qiymətləndirməyən, ölkədə sabitliyi pozmağa çalışan, hətta bu işdə düşmən ermənilərlə əlbir olan və onların əlaltısına çevrilən bədxah qüvvələr yenidən baş qaldırmaq istəyirlər. Son zamanlar Şəki, Balakən, Zaqatala rayonlarında baş verənlər buna sübutdur. Yaxşı ki, orada sabitliyi pozmaq cəhdləri nəticəsində itki verilməsinə və qarşısının gec alınmasına baxmayaraq cinayətkarlar tutulub məs uliyyətə cəlb olundular. Həmin cinayətkarları maliyyələşdirən, onları bəd əməllərə təhrik edən, qara qüvvələrin olması sirr deyil. Belə qüvvələr şimal-şərq bölgəsində də, Quba, Qusar, Xaçmaz rayonlarında da sabitliyi pozmağa, adamları dövlətə, hökumətə, yerli icra hakimiyyəti rəhbərlərinə qarşı çıxmağa sövq etmək istəmişlər. Şimalın etnik rəngarəngliyi, burada azərbaycanlılarla yanaşı rusların, ləzgilərin, tatların, yəhudilərin yaşaması onların nəzərindən qaçmamışdır. Amma onlar yanılırlar. Belələrinin Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycana qarşı hər hansı cinayətkar cəhdi bu bölgənin icra orqanları başda olmaqla sağlam qüvvələri, geniş ictimaiyyət tərəfindən qətiyyətlə pislənir və belə cəhdlərin qarşısı vaxtında qətiyyətlə alınır. Çünki şimal bölgəsinin bütün sağlam qüvvələri Azərbaycanda sabitliyin pozulmasını istəmir, qubalılar, başda rayon icra hakimiyyətinin başçısı Mehman İbrahimov olmaqla Heydər Əliyevə inanır və hərtərəfli dəstəkləyir.

Mehman İbrahimov bu vəzifəyə tə`yin ediləncən uzun müddət rayonda rəhbər vəzifələrdə çalışmış, rayonun ən iri təsərrüfatı, - Zərdabi adına sovxozun direktoru işləyərkən səriştəli, təşəbbüskar, qabaqcıl təsərrüfat rəhbəri kimi tanınmışdır. Rayon ictimaiyyəti tərəfindən iki dəfə deputatlığa namizədliyi göstərilmiş, yüksək səs toplaya bilmişdir. 1999-cu ildə möhtərəm prezident Heydər Əliyevin fərmanı ilə Quba rayonunun başçısı tə`yin olunmuşdur. Tə`yin olunduğu vaxtdan Quba rayonunun vertikal inkişafına istiqamət götürmüşdür. Belə ki, Quba rayonunda M.İbrahimovun icra başçısı olduğu qısa müddətdə torpaq islahatı müvəffəqiyyətlə başa çatmış, torpaq payı almaq hüququ olan rayon sakinlərinə torpaq verilmiş və kəndlilər öz torpaqlarının əsl sahibinə çevrilmişlər. rayonda meyvə, taxıl, kartof, tərəvəz məhsulları, ət, süd, yun istehsalı artmış, mal-qara və davarların sayı xeyli çoxalmış, rayonun iqtisadiyyatı əhəmiyyətli dərəcədə yüksəlmiş, əhalinin həyat tərzi yaxşılaşmışdır. Mehman müəllim vəzifəyə tə`yin olunduğu gündən öz fikrini və əməyini rayonda yığılıb qalmış problemlərin həllinə yönəltmiş, bütün idarə və təşkilatların sağlam qüvvələrini bu işə səfərbər edə bilmişdir. Onun vəzifədə olduğu qısa müddət ərzində rayonda böyük abadlıq işləri aparılır, Quba şəhəri günü-gündən gözəlləşir. Quba şəhərinin girəcəyindəki iki tərəfli yol əsaslı tə`mir olunmuş, icra aparatı başçının təşəbbüsü, sə`yi və birbaşa iştirakı ilə yolun ortasında qazon abadlaşdırılmış, yol başdan-başa işıqlandırılmışdır. Şəhərin mərkəzi meydanında Dədə Qorqud xatirə kompleksi, erməni daşnaklarının Qubada törətdikləri vəhşiliklərin, soyqırımın qurbanlarının əziz xatirəsinə həsr olunmuş kompleks gənclərimizdə tariximizə, soykökümüzə maraq, məhəbbət (sevgi) kimi yüksək keyfiyyətləri aşılamaqla onları vətənpərvərlik, vətənə sədaqət ruhunda, düşməni tanımaq ruhunda tərbiyə edir. Müdrik rəhbərimiz Heydər Əliyevin ölkədə apardığı düzgün siyasətin bütün istiqamətləri rayonda keçirilən tədbirlərdə mütəmadi, geniş müzakirə olunur, Mehman İbrahimovun məntiqli çıxışlarında və əməli fəaliyyətində öz parlaq əksini tapır. M.İbrahimov rayonda H.Əliyev siyasətinin ardıcıl aparılmasına çalışan, H.Əliyevə, xalqa, dövlətə sadiq adamdır və bütün Quba əhalisi bu işdə onunla birdir. Bizi narahat edən isə odur ki, Quba rayonunda gedən bu irəliləyişi özünü müstəqil adlandıran bir çox mətbuat orqanları görmək istəməyir, öz səhifələrində bu günkü Qubanın inkişafını işıqlandırmağa, nümunə kimi ölkə ictimaiyyətinə çatdırmağa səy göstərmir. Əvəzində, özünü müstəqil adlandıran, geniş ictimaiyyətdə tanınmayan "İdeal" adlı qəzetdə Quba və qubalılar haqda, bəzi üzdəniraq qubalıların imzası ilə sifarişli yazılar dərc edilir, redaksiya özünəməxsus tərzdə rəy verir. Çox təəccüblüdür, "İdeal" qəzeti Qubanın inkişafını, tərəqqisini aparılan abadlıq işlərini görməyir, əvəzində 17 və 22 oktyabr 2001-ci il tarixli nömrələrində qəzetdə ünvanı Quba rayonu Azərbaycan prospekti 227 saylı ev göstərilən Abdulhüseynov Əli və Bəydəmirov imzası ilə hər dəfə bir səhifəlik yalan, iftira, böhtan dolu yazı, cızma-qara verilir. Əvvəlla, görək kimdir bu imza sahibləri?

Abdulhüseynov Əli İbrahim oğlu, çox təəssüflər olsun ki, Quba rayonunun Möhüc kəndində dünyaya gəlmiş, hal-hazırda Rusiya Federasiyasının vətəndaşı, Dağıstan Respublikasının Qayakənd rayonunda qeydiyyatda olan, son zamanlar qeyri-rəsmi Qubada yaşayan, 1990-1993-cü illərdə AXCP-nin rayon şöbəsinin fəal üzvü, vətən uğrunda gedən döyüşlərdə bir gün belə vuruşmağına baxmayaraq OMON-nun keçmiş rəisi Nizami Şahmuradovla yaxın münasibətlərinə görə OMON-un cinayətkar üzvlərindən biri olmuş, digər bir qrup cinayətkar OMON-çu ilə birlikdə respublikanın müxtəlif bölgələrində və şimal bölgəsində törədilən cinayətlərdə aktiv iştirak etmiş, dələduzluq, fırıldaqçılıq, hədə-qorxu gəlməklə, zor işlətmək yolu ilə vətəndaşların pulunu, digər əmlakını, o cümlədən maşınını əllərindən almış, rayonda "razborşik", "reket", "pəhləvan" Əli kimi tanınmışdır. Ölkədə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra cinayətkar qara qüvvələr ifşa edilərkən Əli Dağıstana qaçmışdır. Orada da dinc oturmamış, cinayətkar əməllərindən əl çəkməmişdir. Cinayət törətdikdən sonra bir şəhərdən digərində qaçaraq müəyyən müddət gizlənmiş, sonra sakitlik yarandıqda üzə çıxmışdır. Əli müstəqil Azərbaycan dövlətinə düşmən mövqeyi ilə tanınmış, əsasən ermənilər tərəfindən maliyyələşdirilən və cinayətkar planları qurulan terrorçu "Sadval" təşkilatı ilə birbaşa əlaqəlidir.

Onun çirkin əməllərini həyata keçirməsi, özü kimi cinayətkar əlaltılarını saxlaması, eləcə də cinayət



törətdikdən sonra orqanlardan müxtəlif üsullarla yayınması, onun və əlaltılarının tutulmaması, uzunmüddətli səfərlərinin maliyyələşdirilməsi böyük imkana malik qaranlıq mənbələr tərəfindən həyata keçirilir.

Son zamanlar rayona qayıdan *Əli yenidən müxtəlif partiya rəhbər*ləri, vəzifədən uzaqlaşdırılmış qeyri-sağlam adamdlarla əlaqə qura bilmiş, rayonda sabitliyi pozmağa çalışmış, idarələrdən, imkanlı adamlardan "haqq" tələb etməyə, "razborkalar" qurmağa başlamışdır. Qeydiyyata alınmayan və qeyri-qanuni fəaliyyət göstərən Ədalət partiyasının Qubada sədridir. Əli çirkin, mənəviyyatsız əməllərilə tanınmış, savad və qabiliyyəti olmayan bir məxluqdur. O, indi də maraqlarını fiziki gücündən və özü kimi başıpozuqlardan istifadə etməklə, regionun rəhbər işçilərindən, zəhmət adamlarından, imkanlı şəxslərdən şantaj etməklə, hədə-qorxu gəlməklə aldatma yolu ilə təhrik etməkdən belə çəkinməyir, əxlaqsız həyat tərzi keçirir. Alkoqollu içkilərə meyllidir, bir oturuma iki-üç şüşə araq içməsi, çox vaxt restoranlarda əyyaşlıq etməsi, yeyib-icdiyinin pulunu ödəməməsi, obyektlərdən və fiziki şəxslərdən haqq yığması Qubaya yaxşı məlumdur.

Belə savadsız, əqidəsiz adamın "İdeal" qəzetində verilən ərizəni özünün yazması özü də şübhə doğurur, ərizənin kimlərinsə diqtəsi ilə yazıldığını göstərir. İftiralarla dolu, böhtançı xarakter daşıyan bu ərizə məntiqsizliyi ilə fərqlənir.

Ədalət partiyasının Quba rayonu üzrə sədri Əli özünün pozuculuq əməllərinə baxmayaraq, ölkə prezidentinə xitabən etiraf edir: "Sizin ömrünüz xalqımızın həyat şəraitinin yaxşılaşdırılmasına və müstəqil Azərbaycan dövlətinin qurulmasına yönəlmişdir". Əslində isə ərizədən də göründüyü kimi Əli kimiləri ölkədə baş verən müsbət dəyişikliklər, iqtisadi dirçəliş, xarici investisiya qoyuluşu, abadlıq işlərinin aparılması, yeni tikililər, müasir iş və istirahət zonalarının yaradılması heç də sevindirməyir, əksinə bu dəyişiklikləri onların gözü götürmür və ona görə də hər cürə qarayaxmadan, böhtandan əl çəkmirlər. Belə olmasaydı, Əli Qubada görülən hər bir işə qulp qoymağa çalışmazdı. Əli öz ərizəsində özü də bilmədən Mehman İbrahimov dövründə Qubada gedən dəyişiklikləri qeyd edir, qubanın su təsərrüfatının yaxşılaşdırılması, rayonun abadlaşdırılması, yollarının təmiri, yeni tiki*lilərin tikilməsi, istirahət zonalarının yaradılması, Quba rayonuna sər*mayə qoyuluşu kimi həqiqətləri etiraf edir. Amma bu işlərə başqa don geydirməyə, rayon rəhbərliyinə böhtanlar yağdırmağa çalışan Əli və "İdeal" qəzeti əslində ölkədə gedən quruculuq işlərinə kölgə salmaq istəyirlər: Guya görülən hər bir iş zamanı rayon rəhbərliyi tərəfindən yeyintiyə yol verilir, əhalinin rahat istirahəti məqsədilə yaradılan hər hansı istirahət zonası isə fahişəxanadır. Qubanın Qəçrəş yolunda yeni üslubda tikilmiş müasir istirahət zonasının, xarici qonaqların, ölkəmizin rəhbər işçilərinin, nüfuzlu iş adamlarının işgüzar görüşlərinin və digər məsul tədbirlərin keçirildiyi, eləcə də yay aylarında neçə-neçə ailənin istirahət etdiyi yüksək komfortlu bir yeri fahişəxana adlandırmaq ən azı mənəviyyatsızlıqdır, rəzillikdir. Bu bütün Qubaya və buraya gələn qonaqlara hörmətsizlikdir, təhqirdir. Belə təhqiramiz böhtanın öz ana-bacılarına hörmət etməyən tərbiyəsiz adamlar və "İdeal" qəzeti kimi məsuliyyətsiz qəzetlər uydura bilər, o ki, qaldı idealsız, əqidəsiz "İdeal" qəzetinin əməkdaşlarının həmin obyektdə hansısa qadınlarla olmasına, əgər bu belədirsə buna görə ilk növbədə mənəviyyatsız həyat keçirən həmin şəxslər məsuliyyət daşımalıdırlar. O ki, qaldı qəzetdə guya qubalı işçinin "Qədeş" ifadəsini işlətməsinə öunun özü də o yazının həqiqətdən uzaq, qərəzli olmasına dəlalət edir. Hamı bilir ki, "qədeş" ifadəsi qubalılara xas ifadə deyil, qubalılar "qədeş" ifadəsini işlətmirlər. "Qədeş" ifadəsinin öz məkanı var və yəqin ki, həmin üzdəniraq əməkdaşlar şəkili, şəkildəkilərin mənşəyini və çəkiliş yerini səhv salıblar. Bu ifadənin qəzetdə işlədilməsinin özü həmin əməkdaşların mənşəyindən və əlaqələrindən xəbər verir. Həmin əməkdaşlara və qəzetə isə bildirmək istərdik ki, daima ərənlik məkanı kimi tənınan Quba və qubalılar, müdrik rəhbərimiz Heydər Əliyev kimi təmkinli, səbrli və hərəkətlərində qətidir, çünki səbrlik Allah-taaladan gəlir. Amma həmin yalançı qəzetlər unutmasınlar ki, *Quba və qubalılara atdıqları böhtanlara görə həmin adamlar mütləq Qubanın mərd oğlanları, ictimaiy*yəti qarşısında cavab verməli olacaqlar. Tez bir zamanda Əli və Əli kimilərin cinayətkar əməllərinə, belələri ilə bir yerdə əyyaşlıq etdikləri, onlarla əlbir olduqları üçün göz yuman hüquq-mühafizə orqanlarının işçiləri və digərləri də ifşa edilib üzə çıxarılacaq. Bu Azərbaycan dövlətçiliyinin gələcəyi naminə ölkədə əhalinin təhlükəsizliyi və sabitliyin qorunması üçün vacibdir.

Hörmətli redaksiya, hörmətli baş redaktor! Sonda "İdeal" qəzetinin 17 və 24 oktyabr tarixli saylarında Quba haqqında getmiş böhtan xarakterli yazılara görə mövqeyinizi bildirməyinizi, müraciəti tam verməyinizi, araşdırmalar aparmağınızı və bəzi üzdəniraq qəzetçilərin bəd, böhtançı əməlləri barədə münasibət bildirməyinizi və Azərbaycan mətbuatının adına ləkə olan belələrinin vaxtında ifşa edilərək xalqa çatdırılmasını xahiş edirik.

**Hörmətlə:**

| | |
|---|---|
| 1. Həsən GÜNƏŞLİ | ƏSMF Quba rayon şöbəsinin müdiri |
| 2. Abasqulu Əliyev | Veteran |
| 3. Əsəd İmaməliyev | Veteran |
| 4. Camo Mahmudov | Veteran |
| 5. Əhməd Baloğlanov | QMƏVŞA İB-nin Quba rayon şöbəsinin sədri |
| 6. Ələsgər Qubatov | MƏ və SQ VB-nin Quba rayon şöbəsinin müdiri |
| 7. Süleyman Əslanov | Rayon təhsil şöbəsinin müdiri |
| 8. Aydın Cəfərov | Rayon maliyyə idarəsinin müdiri |
| 9. Şövkət Tacibov | Rayon təhsil şöbəsinin inspektoru |
| 10. Yafəl Nuriyev | Rayon təhsil şöbəsinin inspektoru |
| 11. Seyfəddin Bayramov | Şəhər 2 saylı orta məktəbin direktoru |
| 12. Məsmə Şahverdiyeva | Şəhər 5 saylı orta məktəbin direktoru |
| 13. Solmaz Mehdiyeva | TİHİRK-nin sədri |
| 14. Əlimərdan Orucov | RİHB-nin Quba şəhəri üzrə nümayəndəsi |
| 15. Nadir Seyidov | müəllim |
| 16. İdris Abdullayev | Quba şəhər bələdiyyə şurasının üzvü |
| 17. Müslüm Allahverdiyev | Quba şəhər bələdiyyə şurasının üzvü |
| 18. Aydəmir Manafov | 6 saylı yol idarəsinin rəisi |
| 19. İsgəndər Hacıyev | Quba rayon YİV-nin rəisi |
| 20. Sarıbəy Namazov | MRX-nın baş həkimi |
| 21. Tahir Nuriyev | GEM-nin baş həkimi |



# HƏQİQƏT ÇİRKABI SEVMİR VƏ YA ÇİRKABA BATMIŞ HƏQİQƏT

## QUBA REALLIQLARI ƏDALƏT GÜZGÜSÜNDƏ

"İdeal" qəzetinin 17.10.2001-ci, 21.10.2001-ci, 14.11.2001-ci il tarixlərində getmiş tənqidi, Quba rayon əhalisinin şəxsiyyətinə, mənliyinə toxunulası ifadələrlə dolu silsilə yazıl..rla əlaqədar olaraq, bir jurnalist maraq və heyrətindən doğan hisslərlə həmin redaksiyaya yollandım. Qəzetin təsisçisi Nazim Quliyevlə görüşüb söhbət apardım. Söhbət əsnasında bu məqalələrin hansı əsaslarla yazıldığı ilə maraqlandım. Məlum oldu ki, N.Quliyevin cümlələrinin əvvəlində də, axırında da sinəsinə döyə-döyə "mən idmançıyam, qara kəmər ustasıyam" - deməsi də bunu sübut elədi.

Məqalələri jurnalistlərindən birinin imzası ilə yazdığını da qeyd etdi. Əsası isə başdanbaşa iftira və yalanla dolu cümlələrlə QRİH başçısı M.İbrahimov və bütün Quba əhlinə şər, böhtan atan təxribatçı Fikrət Bəydəmirovun atasının imzası ilə yazdığı şikayət ərizələri olub. N.Zeynalovdan ərizədə yazılanları rayonda araşdırıb-araşdırmaması ilə maraqlananda "Öz "cip" maşınında, idman formasında Qubaya getdiyini söylədi. Özünü idmançı, alma alan, torpaq sahəsi istəyən kimi təqdim eyləyən Nazim dediyi kimi "yuristlik" eyləyib. Məmurları aldadıb. Guya, onların istirahət evlərinin villa və yeməkxanalarının şəkillərini də çəkib. Bunlardımı Quba rayonunun tanınmış, seçmə oğullarını, namus qeyrət sahibi qadınlarını tənqid atəşinə tutub təhqir eləmək üçün əlində tutduğu əsasları? Məgər bunları obyektiv və reallığa vicdanla yanaşan əsil jurnalist əsasmı saymalı idi? İdman paltarıynan idmançı kimi "araşdırma" aparan Nazim jurnalistikaya əslində təzə heç bir şey gətirməyib, əksinə gülünc vəziyyətə qoyub. "Respublikanın bütün icra başçılarını redaksiyanın otağına gətirmişəm" - deyən təsisçi jurnalist məqsəd və marağını niyə açıqlamaq istəmədi? Qəzetini "İnsan hüquqlarının müdafiəçisi" hesab edən təsisçi bilmirmi ki, heç kəsin başqalarının əsassız olaraq şəxsiyyət və mənliyinə toxunmaq, ləyaqətini alçaltmaq ixtiyarı yoxdur. Məhz buna görə redaksiyamıza çoxsaylı Quba sakinlərinin imzası ilə daxil olmuş Müraciət bir daha yerli sakinlərin "İdeal" qəzetinə və onun əməkdaşlarına (başda Nazim olmaqla) qəzəb və nifrət əks olunur. Bu müraciətdən sonra redaksiya tərəfindən araşdırmalar aparmaq üçün Quba rayonuna ezam olundum. Məqalələrin birində adı çox hallanan Quba rayon Qırmızı qəsəbə sakini ASX quşçuluq firmasının sədri Zavalupov İfraim Xananil oğlu ilk həmsöhbətim oldu.

### Günahsız-günahkar

**- İfraim müəllim, günahsız-günahkar məlumdur ki, Qubanın Mirzəməmməd kəndində yerləşən "ASX quşçuluq firmasının" təsisçisisiniz. "İdeal" qəzetində getmiş "İcra başçısı ilə şərik olmalısan" məqaləsində bu firma və sizin haqqınızda yazılanlara qarşı nə deyə bilərsiniz?**

- Firmanın yerləşdiyi ərazi dövlətin torpağıdır. Mən onu Quba rayon ovçular cəmiyyətinin sədri Fikrət Bəydəmirovdan 25 illik müqavilə yolu ilə icarəyə götürmüşəm. Lakin sən demə bu müqavilə saxtalaşdırılıbmış, Bakı Şəhər Ovçular Cəmiyyətinin Azəriov İttifaqının sədri Hacı Ramazanla söhbətində müqavilənin bir illik olduğunu bildirdi. Demə Fikrət özü ilə Moskvaya apardığı kompüterdə sənədləri saxtalaşdırıb, hansı variantlasa hacı Ramazana qol çəkdirib. Mən, hacı Ramazan və Fikrət bu haqda söhbət eləyəndə hacı, Fikrətə əsəbi halda dedi ki,"mən heç vaxt görməmişəm ki, nə Rusiyada Azərbaycan əlifbası olsun, nə də İfraim onu aparıb saxtalaşdırsın. Axı o, öz-özünə düşmənçilik eləməz". Fikrətin hesablamalarına görə bu müqaviləyə mən 70-80 min dollar pul vrməliyəm. İndi də məndən bu məbləği verməyimi təkid edir. O, deyir: "Ya məni firmaya şərik eləcəyəksən, ya da həmin məbləği ödəyəcəksən." O, məndən bu günə qədər şantaj yolu ilə torpaq pulu istəyir. Bu torpaq dövlətindir. Mən onu müqavilə yolu ilə almışam. Fikrət saxta sənədləri ört -basdır eləmək üçün məndən külli miqdarda pul almışdır. İndi də bunu davam eləmək istəyir. Fikrət atası Gülbəy və onları idarə edənlər (Pəhləvan Əli və onun dost-tanışları) işi elə hazırlayıblar ki, bura qoyduğum pulları mənimsəsinlər. Mən bu firmanı respublika prezidentinin göstərişilə yaratmışam. Fikrətə də demişəm ki, bunu mənə dövlət rəhbəri məsləhət bilib. Mən buranı atıb xaricə gedə bilərəm. Lakin onun mənə qarşı elədiyi namərdliyi bağışlaya bilmərəm. Mənim heç bir günahım yoxdur.

Hal-hazırda bu həyətdəki qonşular buranı çəpərləməyə icazə vermirlər. Onlar öz torpaqlarını tələb edirlər.

Fikrət saxta sənədlərlə istədiyi məbləğə dövlət torpaqlarını satıb xeyli varlanıb.

### Fikrət fırıldaqçıdır

Qırmızı Qəsəbə sakinlərindən Mikayılov Mikayıl Mərdəay oğlu:

**- Təqaüdçü idman müəllimiyəm. Fikrət məndən 10 sot həyətyanı sahəyə görə əvvəl 2000 dollar, az sonra da əlavə 200 dollar pul alıb. 2 ildir ki, aldığım torpağa sahib ola bilmirəm.**

2-3 Mündəliyeva Manan və Mündəliyeva Raya "hərəmiz 20 sot torpağa görə Fikrətə 3 min 500 dollar (cəmi 40 sota 7 min dollar) məbləğində pul vermişik." 2 ildən çoxdur torpağa sahib ola bilmirik. Məlum olub ki, Fikrətin verdiyi sənədlər saxtalaşdırılıb.

4. Misimov Misim İyiloviç - Fikrətə 10 sot torpaq üçün 3000 dollar vermişəm.

5. Kililov İlqanyel Maksimoviç - 3000 dollar Fikrətə borclu qalmışam. Mən bir az zirək tərpənmişəm. Sənədlərin saxta olduğundan tez duyuq düşdüm. Lakin Fikrət məndən hələ də bu borcu tələb eləyir. Demə Fikrətin hesablamaları bu imiş. İfraimdən də bu hesablamalarla 70-80 min dollar tələb eləyir.

### SAXTA SƏNƏDLƏRİN TƏRTİBATÇISI

Fikrətin satdığı bu torpaqlar guya ovçular cəmiyyətinin, adamlar isə oranın üzvləridir. Əslində bu adamlar heç o idarəni tanımırlar. İfraimin firma ətrafındakı adamların torpaq sənədləri müqavilədən 2 il qabaq sənədləşdirilib. İfraim bu saxta sənədləri rayon prokurorluğuna, icra hakimiyyətinə, torpaq şöbəsinə göndərir. Bu sənədlərin heç bir hüquqi səlahiyyəti olmadığından inzibati icra nümayəndəsi Nəcəf Mirzəməmmədov saxta sənədlərin tərtibinə görə işdən azad edilir.

### FİKRƏT MİLLİ MÜNAQİŞƏ TÖRƏDİR

Hər ay İfraimin Fikrətə 100 şirvan, atasına (20 şirvan) (Faktı İfraim verib) verməsinə baxmayaraq "Biz firmanı bir "yəhudi dılğınına" verə bilmərik deyərək ona qarşı hücum kompaniyasını genişləndirir. Pəhləvan Əlini qoçuluğa göndərir. İfraimə: "sənin onları məhkəməyə vermək fikrin varmı?" sualına: "Mən "İdeal" qəzetinin əməkdaşlarını məhkəməyə verəcəyəm"- deyir. Çünki onlar bu yazı ilə milli münaqişə törədir."

### PƏHLƏVAN ƏLİ SADVALİSTDİR

**- "İdeal" qəzetinin yazdığına görə siz Fikrətin üstünə silahla (tapancayla) getmisiniz?**

- Məndə heç bir silah olmayıb. 5 şahidim var. Guya mən bu silahı vermişəm bir axmağa ki, get, Fikrəti vur. Bunlar hamısı Fikrətlə Pəhləvan Əlinin uydurmalarıdır. Silah özlərinin olub. Mənə böhtan atmaq üçün gətirib ora (firmaya) qoyublar. Müstəntiqə izahatında qardaşı oğlu Süleyman Dadaşov əsl həqiqəti, bütün bunların yalan olduunu söyləyib.

Pəhləvan Əli qatı sadvalistdir - deyən İfraim onun Dağıstanda arxası - yəni əqidə, məslək yoldaşları olduğunu söylədi. "Mən tam məsuliyyətlə deyə bilərəm ki, onu oradan maliyyələşdirib bura yollayırlar ki, milli münaqişə törətsin. Fikrət Pəhləvan Əlinin tərəfindən məni qorxudub məndən külli miqdarda pul alıb öz aralarında bölmək istəyirlər. Mən isə Allahımdan başqa heç kimdən qorxmuram. Pəhləvan Əlinin sadvalist, Fikrətin təxribatçı olmağı milli təhlükəsizlik orqanlarına məlumdur. Nədənsə susurlar".

### BAŞ MÜHASİB TƏHQİR OLUNUB

**Firmada baş mühasib işləmiş Vladimirovka kənd sakini Babayeva Mariya, Fikrət tərəfindən söyüşlə təhqir edilib işdən uzaqlaşdırılmışdı.**

*Mariyanın dediklərindən:*

- İfraimin işdə olmadığı bir gün Fikrət məndən seyfin açarlarını tələb etdi. Mən vermək istəmədikdə şəxsiyyətimə toxunan sözlərlə söyüb təhqir etdi. Məni "yevreyin hambalı" adlandırdı. O, məndən dəfələrlə hədə-qorxu yolu ilə firmanın pulunu istəyib alıb. Bu dəfə otağın və seyfin açarlarını məcbur aldı. Sonradan İfraim mənə dedi ki, bütün sənədləri, torpaq müqaviləsi, sərəncam, nizamnamə, rəy, şəhadətnamə Fikrətin əliylə oğurlanıb. Fikrət çörək tapdayan, nanəcibdir. İfraim yəhudi də olsa insan adamdır. Mənim yoldaşım vaxtsız rəhmətə gedib. Bir qızım var. İfraim mənə çox hörmət eləyib. Yevrey olanda nə olar. Xeyirxah, böyük qanacaq və qabiliyyət sahibidir. Fikrət namərdlik elədi. Fikrətin "İdeal" qəzetində yazdırdıqları iftira və böhtandır. Atası, özü, qardaşı oğlu hamı ondan dolanıdı. Onlardan başqa 40-a qədər azərbaycanlı ailəsi oradan çörək yeyir.



(Ardı 6-cı səh.)

# ÖZƏLLƏŞDİRMƏNİN HƏLLEDİCİ, STRATEJİ MƏRHƏLƏSİ



Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, haqqında söhbət açmaq istədiyim departamentdə və təbii ki, tabe olduğu nazirlikdə bir çox başqa nazirlik və idarələrdən fərqli olaraq mətbuatla müntəzəm, səmimi əlaqələr var. Təbiidir ki, kütləvi informasiya





vasitələri ilə normal münasibətlərdə olan qurumlar əhali ilə, onlara müraciət edənlərlə də sivil ünsiyyətdə olur, lazımi diqqət və qayğı göstərirlər.

Söhbət Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Dövlət Əmlakının Özəlləşdirilməsi Departamentindən gedir. Departamentdə olarkən öyrəndik ki, uzun illər boyu dövlət mülkiyyəti formasına əsaslanan əmlakın, müəssisə və obyektlərin özəlləşdirilməsi hazırda "Azərbaycan Respublikasında Dövlət Əmlakının Özəlləşdirilməsinin "Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir. Azərbaycan dövləti tərəfindən özəlləşdirməyə ilk gündən iqtisadi inkişafın əsas vasitələrindən biri kimi yanaşılmış, bu sahədəki tədbirlər əlaqəli şəkildə həyata keçirilmiş, özəlləşdirmə prosesinin normativ-hüquqi, təşkilati və funksional bazası yaradılmışdır.

Azərbaycan Respublikası prezidentinin 22.03.2001-ci il tarixli 449 nömrəli fərmanı ilə I Özəlləşdirmə Proqramı çərçivəsində özəlləşdirməyə açılmış, lakin özəlləşdirilməsi başa çatmamış müəssisə və obyektlərin II Dövlət Proqramı çərçivəsində özəlləşdirilməsi qaydaları müəyyənləşdirilmişdir. Həmin müəssisə və obyektlərin özəlləşdirilməsini təmin etmək məqsədilə II Özəlləşdirmə Proqramında nəzərdə tutulan daha çevik mexanizmlər tətbiq edilməkdədir.

Özəlləşdirmə prosesinin şəffaf şəkildə və ictimai nəzarət altında aparılması üçün zəruri tədbirlər həyata keçirilir. Belə ki, özəlləşdirməyə açılan sahələr və müəssisələr, özəlləşdirmənin gedişi haqqında məlumatlar müntəzəm olaraq kütləvi informasiya vasitələri ilə əhaliyə çatdırılır.

Məlumat mübadiləsinin avtomatlaşdırılmasını, özəlləşdirmə prosesinin operativliyini təmin etmək məqsədilə müasir informasiya texnologiyasından istifadə etməklə Azərbaycanın bütün bölgələrini əhatə edən Milli Avtomatlaşdırılmış Əmlak Sisteminin yaradılması sahəsində işlər başa çatmaq üzrədir.

Dövlət əmlakının regmestri yaradılmış, ölkənin 11 min müəssisə və təşkilatının sərəncamında olan 90 min daşınmaz dövlət əmlakı (Azərbaycanın xarici ölkələrdəki səfirlik və nümayəndəliklərinin, ölkəmizin hüdudlarından kənarda yerləşən Azərbaycan Respublikasının əmlakı olan müəssisə və obyektlərin daşınmaz əmlakı da, daxil olmaqla) barədə məlumatlara registrin bazasına daxil edilmişdir.



Ayrı-ayrı müəssisələrin fəaliyyətinin bərpası üzrə də tədbirlər həyata keçirilir. Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əldə olunmuş razılaşmaya əsasən Müəssisələrin Dirçəldilməsi Proqramı (Turh Around Managmen- TAM) tətbiq edilir.

"Özəlləşdirmə Proqramı"na uyğun olaraq müəsisələrin özəlləşdirməqabağı sağlamlaşdırılma tədbirlərindən biri də onun idarəetməyə verilməsidir.

Minlərlə insanın çalışdığı "Azəbaycan alüminiumu" səhmdar cəmiyyəti artıq uzunmüddətli idarəetməyə verilmişdir ki, bu da istehsalın bərpasına və yeni iş yerlərinin açılmasına şərait yaradır.

Müqauviləyə əsasən Hollandiyanın "Fondell Metal Particirations B.V." şirkəti dövlət büdcəsinə 2 milyon ABŞ dolları ödəməyi, səhmdar cəmiyyətin əmək kollektivi üzvlərinə 1.800.000 ABŞ dolları təşkil edən əmək haqqı borclarının ödənilməsini, idarəetmənin ilk üç ili ərzində 202 milyon ABŞ dolları həcmində investisiya qoyuluşunun həyata keçirilməsini öhdəsinə götürmüşdür.

Bu ilin mart ayında Azərbaycan Respublikasının prezidenti tərəfindən yanacaq - energetika, maşınqayırma, kimya sənayesi, "Biyan" İstehsalat Birliyi, "Azərkontrakt" SC, "Azərkitab" Kitab Ticarət Birliyi, "Azərbalıq" Dövlət Balıqçılığı Təsərrüfatı Konserni, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Rabitə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi, Mədəniyyət Nazirliyi, Elmlər Akademiyası müəssisələrinin, damazlıq quşçuluq təsərrüfatının özəlləşdirilməsi, həmçinin "Azərneftkimyamaş" Açıq Tipli Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncamlar imzalanmışdır.

Dövlət müəssisələrinin özəlləşdirilməsinin ilkin mərhələlərindən biri də onların bazasında səhmdar cəmiyyətlərinin yaradılmasıdır. Belə ki, indiyədək 1400-ə yaxın belə səhmdar cəmiyyəti yaradılmış, onların böyük əksəriyyətinin səhmləri pullu və çek hərraclarına çıxarılmışdır.

Özəlləşdirmə başlanandan 1 noyabr 2001-ci ilədək dövlət büdcəsinə 528,6 milyard manat vəsait daxil olub.

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı", digər normativ-hüquqi sənədlər özəlləşdirmənin ikinci mərhələsinin maksimum iqtisadi səmərə ilə həyata keçirilməsi və bu prosesdə xarici investorların daha fəal iştirakı üçün geniş imkanlar açır. Bu mərhələdə ölkənin ən iri və strateji sahələri özəlləşdirilir. Əlbəttə, bütün bunlar ölkə iqtisadiyyatının tez bir zaman da dirçəlməsini və inkişafını tə'min edəcəkdir.

**Şöhlət ABBAS**

# AZƏRBAYCAN MİLLİ KREDİT İTTİFAQI

**İlk kredit ittifaqı 130 il əvvəl Almaniyanın Bavariya şəhərində kiçik qəsəbənin meri Friedreih Raiffensen tərəfindən yaradılıb. O, öz dövründə ətrafında müəyyən vəsaiti olan adamların pullarını bir yerə toplayaraq, öz üzvlərinin maliyyə ehtiyaclarını ödəmək üçün borc verə bilmək üçün əmanət kooperativi şəklində bir qurum yaratmışdı.**

Azərbaycanda isə ilk belə qurum 1997-ci ilin may ayında Salyan rayonunun Noxudlu kəndində Avropa Birliyinin TASİS proqramının köməkliyi ilə yaradılmışdır. İlk əvvəl bu qurum məhdud məsuliyyətli "Altun" Kredit Birliyi adlandırılmış, 1998-ci ilin avqust ayında isə dəyişilərək Məhdud Məsuliyyətli "Altun" Qeyri-Bank Kredit Birliyi adlandırılmışdır. Birliyin 26 nəfər üzvü, 20,0 milyon manat nizamnamə kapitalı olmuşdur. Hazırda isə 26 nəfər üzvü və 38.0 milyon manat nizamnamə kapitalına malikdir.



Respublikamız üzrə bu sahədə ilk təşəbbüskar və birliyin yaradıcısı "Altun" Qeyri-Bank Kredit Birliyinin sədri Əziz Həsənovla maraqlı müsahibəmiz zamanı maraqlandığımız bütün suallara cavab aldıq:

- Əziz müəllim, respublikamızda kredit sahəsində belə bir birliyin yaradılmasına hansı zərurət və hansı şərait səbəb oldu?

- Bildiyiniz kimi, XX əsrin 80-ci illərində Sovetlər İttifaqı dağılandan sonra müsteqillik qazanmış Azərbaycanda kənd təsərrüfatının özəyi olan kolxoz və sovxozlar ləğv edildi, geniş şəkildə aqrar islahatları aparıldı. Və uzun müddət idi, sahibkarlıq, mülkiyyətçilik prinsiplərindən uzaq olan kənd əhalimizə torpaq sahələri paylandı. Lakin bu torpaq sahibləri öz təsərrüfatlarını inkişaf etdirmək üçün güclü maliyyə dəstəyinə ciddi ehtiyac duydu. Son 10 il gərgin maliyyə böhranları ilə yadda qaldı. Maliyyə vəsaitinin verilməsi forması yalnız bank sistemi idi və banklar qeyri-kənd təsərrüfatı sahələrinə maliyyə mənbəyi olduqları üçün torpaq sahibləri bu mənbədən istifadə edə bilmirdilər. Beləcə, maliyyə vasitəçiliyinin belə bir formasının, kredit birliyinin yaranmasına ehtiyac duyuldu.

1998-ci ildə müşahidə etdiyim bu qeyri-qənaətbəxş mənzərənin təsərrüfatımıza, sadə, zəhmətkeş insanlara həm maddi, həm mənəvi zərbə olduğunu bir mütəxəssis, ən azı bir vətəndaş kimi görməyə bilməzdim.

Buna görə bütün bu siyasi və iqtisadi dəyişikliklərdən sonra qərara gəldim ki, müstəqil kredit birliyi yaradıb elimə-obama, xalqıma köməklik göstərim. Və 1997-ci ilin may ayında "Altun" Qeyri-Bank Kredit Birliyi yaratdıq. Respublika Ədliyyə Nazirliyində qeydiyyatdan keçərək şəhadətnamə aldıq. Birliyin 26 nəfər təsisçisi var. Daha sonra Milli Bankdan lisenziya aldıq. Artıq sənədləşmə, ilkin formalaşma çətinlikləri arxada qaldı.

- Bu günə qədər qarşıda qoyduğunuz məqsədə nail olmusunuzmu? Respublikamızda rəhbərlik etdiyiniz Birliyin fəaliyyəti hansı cizgilərlə yadda qaldı?

- Biz Avropa Şurası Birliyinin bu sahə üzrə mütəxəssisləri ilə görüşdük, əməkdaşlıq fikri ilə çıxış etdik və bütün sənədlərimizi onlara təqdim etdik. Qonaqlarla birgə Salyanda təsisçilərlə, Noxudlu kəndində birliyin üzvləri ilə görüşlər keçirdik. *Onlar torpaq sahələrində olub, onun əkinə yararlılığını yoxladılar. Daha sonra iş planı ilə Avropa Birliyinə müraciət etdik. Və neticədə 26 fermer təsərrüfatına taxıl əkmək üçün kredit verilməsinə sərəncam verdilər. Biz də öz nizamnamə kapitalımızdan iki kəndli-fermer təsərrüfatına kredit verdik.*

Kredit verilməsində ilkin şərt girov məsələsidir. Bu razılaşma isə hamının ürəyincədir.

Bu ilkin mərhələnin başa çatmasında Avropa Birliyinin mütəxəssisi, hollandiyalı Ostarxaut Vam Henk çox köməklik etdi.

Respublikamızın cənub-şərq bölgəsi üzrə kredit birlikləri məsləhət və koordinasiya şurası yaradılmışdır. Şuraya rəhbərlik etmək mənə həvalə olunub.

Hazırda Azərbaycanda 19 kredit birliyi fəaliyyət göstərir.

Bir faktı da qeyd edim ki, əvvəllər çoxları işimizə ümidsiz baxırdı.

Gündən-günə inamlı addımlar atıldıqdan sonra ümidləri doğrultduq və bizə müraciət edənlərin sayı xeyli çoxalıb.

Hətta Dünya Bankı mütəxəssislərinin proqnozlarına görə, Azərbaycanda belə birliklərin sayı 400-ə çatacaqdır. Aydın olmaq üçünsə izah edim ki, kredit birliyi - bir növ kəndlinin öz bankıdır. Kəndlərdə yaranan belə birliklər kənd təsərrüfatı məhsullarının ümumi istehsalının artmasına, əhalinin işsizliyinin aradan qaldırılmasına böyük müsbət təsir göstərəcək. Beləliklə, yaxın gələcəkdə respublikamızın kənd təsərrüfatı sisteminin differensial kreditləşməsini təmin edəcək maliyyə dəstəyinin yaradılıb möhkəmlənməsinə xidmət edəcək.

**Emin Nəcəfov**

***Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin "Dövlət müstəqilliyinin 10 illik yubileyinin təşkil edilməsi" barədə fərmanında irəli sürülən göstərişlərə əsasən Azərbaycanın bütün bölgələrində hazırlıq tədbirləri həyata keçirilirdi. Respublikamızın aqrar rayonu olan Saatlı rayonu 18 oktyabr təntənəsinə çox böyük yeniliklərlə hazırlaşdı.***

***Bayram gününün təntənəli təşkili üçün icra başçısı Gülhüseyn Əhmədov xüsusi tapşırıqlarla bütün mövcud imkanları səfərbər etdi.***



# Saatlı rayonu milli dövlət müstəqilliyimizin 10 illiyi təntənəsində

*16 oktyabr tarixində rayon mədəniyyət sarayında rəsmi toplantı keçirildi. Toplantıya icra başçısı G.Əhmədov sədrlik edirdi. Mərasim Azərbaycanın dövlət himninin gur sədaları altında açıldı. Və icra başçısının dəvəti ilə müstəqilliyimiz uğrunda, vətən naminə həlak olmuş şəhidlərimizin ruhu sükutla yad edildi. Böyük zala ağsaqqallar, mədəniyyət işçiləri, maarif xadimləri, Qarabağ müharibəsi iştirakçıları, şəhid ailələri, rayon ictimaiyyətinin nümayəndələri, dəvətli qonaqlar toplaşmışdılar.*

*Toplantıda giriş nitqi ilə Rayon İcra başçısı Gülhüseyn Əhmədov çıxış etdi. O, geniş məzmunlu məruzəsində müstəqilliyimizin yaranma tarixindən, milli dövlətçiliyimiz uğrunda Azərbaycan xalqının göstərdiyi fədakarlıqdan və itkilərimizdən, müstəqilliyimizin qorunub saxlanılmasında möhtərəm prezidentimiz Heydər Əliyevin daxili və xarici siyasətinin rolundan və son 8 ildə bu məntiqi siyasətin nəticələrindən söhbət açaraq iştirakçıları bu mövzuda bir sıra maraqlı məqamlarla tanış etdi. O, bildirdi ki, xalqımız əsrlər boyu uğrunda mübarizə apardığı azadlığı qanı bahasına əldə etdi. Lakin 1991-ci ildə müharibə dəhşətlərinin, şəhid qurbanlarının, iqtisadi böhranın, hakimiyyət uğrunda müharibənin məngənəsində yolunu itirən Azərbaycan uçurumun kənarında qaldı. Müstəqil dövlətimiz həm daxildən, həm xaricdən təhlükə ilə üz-üzə qaldı. Azərbaycanı zülmət qaranlıqdan işıqlı yola çıxaran isə dünya şöhrətli lider, xalqımızın dahi rəhbəri Heydər Əliyev oldu. Layiq olduğu vəzifəyə - ölkə prezidenti seçilən Heydər Əliyev insanları məqsədyönlü şəkildə səfərbər etmək bacarığı ilə, müdriklik və təmkinlə respublikamızı pillə-pillə yüksələn inkişafa çatdırdı.*

*Və bu gün qətiyyətlə deməyə əsasımız var ki, Azərbaycan dövləti güclüdür, möhkəmdir.*



*Daha sonra şəhər bələdiyyəsinin sədri Zülfü Əliyev müstəqilliyimizin Azərbaycan xalqına bəxş etdiyi töhfələrdən, yeni idarəetmə orqanı olan bələdiyyələrin yaranma tarixi və fəaliyyətindən, müstəqil dövlətimizin problemlərinin həllində rolundan bəhs edən məruzə etdi. Saatlı rayon YAP təşkilatının sədri Lütvəli Şıxəliyev YAP-ın 1991-ci ildə, müstəqillik qazandığımız bir dövrdə yarandığından, 10 il müddətində Azərbaycanda siyasi arenada yaranmış partiyalar və onların proqramlarından müqayisəli təhlil etdi.*

*O, nitqini "Azərbaycanın siyasət meydanında bir ideologiya var, bir partiya var. Bu, Heydər Əliyev ideologiyası, Yeni Azərbaycan Partiyasıdır" şüarı ilə tamamladı.*

*Yığıncağı rayon təhsil şöbəsinin müdiri Şamil Nurəliyev davam etdirərək respublikamızda aparılan təhsil islahatlarından, möhtərəm prezidentimiz cənab Heydər Əliyevin milli təhsil sisteminin inkişafına xüsusi qayğı və diqqətindən, YAP gənclər təşkilatının sədri Pünhan Həsənov Saatlı gənclərinin qarşısında duran vəzifələrdən, cənab İlham Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi qayğıdan söhbət açdı. S.Vurğun adına məktəbin direktoru Oqtay Məmmədov müstəqil Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 1993-2001-ci illəri əhatə edən daxili və xarici siyasəti haqda ümumiləşmiş məruzə etdi.*

*RİH başçısı G.Əhmədov görkəmli akademik, millət vəkili Cəlal Əliyevin Saatlı rayon ictimaiyyətinə göndərdiyi təbrik teleqramını oxudu.*

*Rəsmi yığıncağın növbəti hissəsi bayram töhfələrini təqdim etmə mərasimi idi.*

*Bütün rayon şəhid ailələrinə, Qarabağ əlillərinə İcra Hakimiyyətinin yardımları təqdim olundu.*

*Eləcə də yuxarı sinif şagirdləri arasında keçirilən "Mənəvi dəyərlər" inşa müsabiqəsinin bir neçə qalibi hədiyyələrlə təltif edildi. 10 nəfər Saatlı vətəndaşı isə milli vətəndaşlıq vəsiqələri ilə mükafatlandırıldı.*

*Azərbaycanımızın milli dövlət müstəqilliyinin 10 illik yubileyi şərəfinə təşkil olunmuş rəsmi yığıncağı Saatlı rayon İHB G.Əhmədov yekun sözü ilə tamamladı. O, bir daha Saatlı rayon ictimaiyyətini, bütün Azərbaycan xalqını bu əlamətdar bayram münasibətilə təbrik etdi, ən səmimi arzularını çatdırdı. Fikrini möhtərəm prezidentimiz Heydər Əliyevin qiymətli kəlamı ilə tamamladı:*

*"Müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir".*

**Firudin İsmayılzadə**

# BƏLƏDİYYƏ SƏDRİ - EL AĞSAQQALI



***Qəbələ rayonunun Laza kənd bələdiyyəsi yerli özünü idarəetmə orqanı kimi artıq 2 ildir ki, seçicilərinin ümidlərini doğrultmaqdadır. Bələdiyyə formalaşarkən ilk iclaslarda kənd sakinlərinin və rayon rəhbərliyinin yekdil qərarı nəticəsində Bəhərçinov Bəhərçin Hətəm oğlu sədr seçildi. O. 1943-cü ildə elə bu kənddə - Lazada anadan olub.***

1960-64-cü illərdə Gəncə Tibb Texnikumunu, daha sonra ADU-nun biologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətini səhiyyə işçisi kimi davam etdirmişdir. O illərdə Qəmərvaş, Yenikənd, Əmirvan, Durca, Soltanoba - ümumiyyətlə, 12 kəndin əhalisinin sağlamlığının qorunmasında fəal iştirak edərək xüsusi xidmətlər göstərmişdir. Məhz bu kimi göstəricilərə görə o, 1982-ci ildə "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif olunmuşdur. Azərbaycan Respublikası Ali Sovetinə deputatlığa namizəd seçilmişdir.

Bəhərçin müəllimin əməyi dəfələrlə layiqli qiymətini almış və bir neçə medal və fəxri fərmanlara layiq görülmüşdür.

Lakin ən böyük qiymət doğma kənd camaatının etimad və hörmətini qazanmaqdır. Bəhərçin müəllimin kökü Həzrət Babaya bağlıdır və müqəddəs övliyanın ona varisliyi çatır.

İnsanlığa xidmət, indiki çətin dövrdə öz mənafeyini deyil, xalqın marağını gözləmək, bu müqəddəslikdən süzülən, damarlara hopan qanla, irslə bağlıdır.

Bu gün Bəhərçin müəllimin qayğıları çoxdur. O böyük bir ailənin başçısıdır.

Ömrünün mənası 4 övladına və nəvələrinə bağlı olan Bəhərçin müəllimi gün ərzində 2-3 saatdan artıq istirahət edən görən olmayıb.

İndi o, bütün kəndin, elin qayğılarını da çiyinlərində hiss edir. Etibarı qazanmaq nə qədər çətindirsə, onu qorumaq, doğrultmaq ikiqat çətindir. O, yalnız bir bələdiyyə sədri deyil, həm də el ağsaqqalıdır. Ağsaqqal adını və vəzifəsini Bəhərçin müəllim yaşına görə, əməllərinə görə qazanıb.

Laza kənd bələdiyyəsi son bir ildə yolların təmiri, abadlıq işləri, illərdir həll olunmayan kommunal problemlərin, əhalinin sosial problemlərinin həllində nəzərə çarpacaq uğurlar əldə edib. Bələdiyyə fondunda olan vəsait tamamilə belə işlərə sərf olunur.

Bu da əlbəttə, Bəhərçin müəllimin tələbkarlığı, diqqəti və rəhbərliyi ilə əldə olunub.

Öz ömür yolu və xeyirxahlığa xidmət edən fəaliyyəti ilə təkcə bələdiyyə sədri kimi yox, vətənpərvər vətəndaş kimi, kamil insan kimi Bəhərçin müəllim örnək timsalındadır!

# YÜKSƏK TƏHSİLƏ GEDƏN YOL KİTABXANADAN BAŞLAYIR

## (Azərbaycan Dövlət Mədəniyyət və İncsənət Universitetinin kitabxanası bu gün)



Öz xalqının nicatı yolunda onu işıqlı gələcəyə qovuşdurmaq arzusu, ideyası ilə çarpışacaq mübarizlər, şəxsiyyətlər yetişdirməkdə kitabxanaların rolu böyükdür və danılmaz həqiqətdir.

"Kitabı hər bir oxucuya" de-

"Kitabı hər bir oxucuya" devizi ilə fəaliyyət göstərən kitabxanalarımızdan biri - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanası bu gün də bu devizi ali təhsil ocağında - yüzlərlə müəllimə, professor, tələbə və digər oxuculara tətbiq edir.

Bu sözlər ADMİU-nun kitabxanasının müdiri Sədaqət xanım Mahmudovanın rəhbərliyi ilə bütün kollektivin gündəlik iş prinsiplərini ifadə edir.

Qeyd edək ki, Sədaqət Bağır qızı Mahmudova Ə.Cavad adına Bakı Mədəni-Maarif Texnikumunun kitabxanaçılıq fakültəsini bitirib, sonradan Bakı Dövlət Universitetinin kitabxanaşünaslıq və biblioqrafiya fakültəsinə daxil olub. 1975-ci ildən Naxçıvan MR-nın Şərur rayon Şahtaxtı kənd kitabxanasının müdiri işləyib, həmin illər o, H.Cavid adına sovxozda ilk komsomol təşkilatı katibi vəzifəsinə seçilib. 1984-cü ildən isə ADMİU-nun kitabxanasında baş kitabxanaçı vəzifəsində çalışıb.
kitabxanaçı vəzifəsində çalışıb.

1998-ci il 6 fevral tarixindən kitabxananın müdiri təyin edilib.

Kitabxananın 5 nəfər işçisi var ki, onlar ali təhsilli mütəxəssisdirlər.

Elmira Mürsəlova, Svetlana Yusipova, Sara Cavadova, Zemfira Səfiyeva təqdirəlayiq işləri iiə kollektivin rəğbətini qazanıblar.

"Hər bir kitabxanaçı öz işlni yüksək səviyyədə qurmağa çalışmalı, tələbə və müəllim kontingentinin hər bir üzvünə fərdi yanaşmalıdır" - deyə Sədaqət xanım söhbəti davam etdirdi.

- Rəhbəri olduğum kltabxana fondu 78705 nüsxə kitabdan ibarətdir. Bunlardan 44849 nüsxə rus dilində, 35856 nüsxə isə Azərbaycan dilindədir. Oxucularımızın sayı 2853 nəfərdir.

Geniş oxu zalından müntəzəm olaraq 2356 oxucu istifadə edir.

Kitabxananın fəaliyyətinin əsasını onun konplektləşdirilməsi təşkil edir. Son illərdə iq-
məsi təşkil edir. Son illərdə iqtisadi çətinliklərlə bağlı fondumuza fərqli olaraq çox az miqdar kitab nüsxəsi daxil olmuşdur. Bunların əksəriyyətini hədiyyə kitablar təşkil edir. İnformasiya vasitələri əsasən dövri mətbuat nəşrləridir və oxucuların ən çox müraciət etdiyi, istifadə etdiyi nəşrlərdir. Dövri mətbuatı biz Bakı şəhər "Qasid" mətbuat yayımı firmasından alırıq.

Müəllim və tələbələrin elmi-metodiki sorğularına tam cavab vermək üçün zəngin biblioqrafiya mə'lumat xidməti göstərilir. Hər hesabat ilində yeniləşən kataloq, kartotekalardan istifadə etmək məqsədilə tələbələrlə iş aparılır.

Kitabxanalarda əlamətdar tarixlərlə əlaqədar tədbirlər keçirilir. Stendlər hazırlanır, foto bülletenlər tərtib edilir, oxucu konfransları, ədəbi-bədii gecələr, görüşlər təşkil olunur. Bunlardan ən yaddaqalanlarını - Xan Şuşinskinin yubıleyi ilə bağlı "Sehrli səslər" kitab sərgı-
bağlı "Sehrli səslər" kitab sərgisini, "Ana dilimiz- dövlət dilimiz" rubrlkası altında sərgi, R.Behbudovun ad günü ilə bağlı "Əbədiləşən səs" adlı foto stend və müstəqilliyimizin 10 illiyi ərəfəsində "Müstəqil Azərbaycan" sərgisini qeyd edə bilərəm.

Biz unutmuruq ki, mədəniyyət, incəsənət nümayəndələri əhatəsindəylk. Onların yüksək zövqünü, maraq dairəsini təmin etmək digər həmkarlarımıza nisbətən bizlərdən xüsusi diqqət, peşəkarlıq tələb edir. Bunun üçün universitetin mütəxəssislərinin məsləhətindən və köməyindən istifadə edirik və təsadüfi deyil ki, tədbirlərimizin təşkilində universitet müəllimlərindən dosent Salyaina Dadaşova, professor Ə.Məmmədov, K.Əliyeva, R.Ağayev, A.Süleymanov, profesor İ.Kərimov, E.Qurbanova və digərləri yaxından iştirak etmişlər.

Fürsətdən istifadə edib onlara, bütün oxuculanmıza və siz mətbuat nümayəndələrinə min-
mətbuat nümayəndələrinə minnətdarlığımı bildıriram.

**Cəmilə Quliyeva**

# MÜSTƏQİL RESPUBLİKAMIZIN KİTABXANA SİSTEMİ MÜASİRLİYƏ KEÇİD MƏRHƏLƏSİNDƏDİR

***Azərbaycan Respublikası Milli Məclisi 1998-ci ildə "Azərbaycanda kitabxana işi haqqında qanun" qəbul edib. Bu qanunun yerinə yetirilməsini təmin etmək üçün prezident 1993-cü ildə müvafiq fərman imzaladı.***

Fərmana əsasən milli kitabxanaların qarşılarında qoyulan vəzifələri yerinə yetirmək böyük əzmkarlıq və fəallıq nümayiş etdirməlidirlər. Təkcə paytaxtda mərkəzi kitabxanaların fəaliyyətinin yaxşı olması kifayət deyil. Müstəqil respublikamızın hər bir bölgəsində yaşayan, işləyən mütəxəssislər bölgə kitabxanalarından lazımi məlumatı ala bilməlidir.

Möhtərəm prezidentimiz Heydər Əliyev kitabxanaların fəaliyyətinə bütün hakimiyyəti dövründə xüsusi qayğı, diqqət göstərmiş və bu xüsusda demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqeddes bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir".

Heydər Əliyevin bu sözlərini əməli fəaliyyətdə təsdiq etmək üçün respublikamızın mərkezi kitabxanası - M.F.Axundov adına Dövlet Kitabxanasının rəhbərliyi bölgələrimizdə olan kitabxanaların əməkdaşlarına müasir cəmiyyətdə müəyyən çətinliklərə baxmayaraq öz işlərini necə qurmağı öyrətmək məqsədilə bir sıra mühüm əhəmiyyətli tədbirlər həyata keçirirlər.

2001-ci il sentyabrın 26-28-də M.F.Axundov adına Dövlət Kitabxanası ABŞ-ın Azərbaycandakı səfirliyi nəzdindəki təhsil



və informasiya mərkəzi ilə birgə seminar keçirdilər.

Proqrama uyğun olaraq Şəki şeherində şəhər mədəniyyət şöbəsinin müdiri İbrahim Rəsulov və şəhər adına mərkəzi kitabxanasının müdiri Seyidəli myəllimin səyi nəticəsində "Müasir kitabxanalar və onların vəzifələri" mövzusunda regional seminar təşkil olundu.

Seminarda Zaqatala, Qax, Balakən rayon kitabxanalarının da nümayəndələri iştirak edirdi. Seminar-müşavirədə günümüzün aktual məsələləri ilə bağlı - "kitabxana menecmenti", "kitabxanaların maliyyələşdirilməsi mənbəyi və yolları", "Beynəlxalq kitabxana əməkdaşlığı və intellektual azadlıq", "kitabxanalarda kömpüterlərin tətblqi", "kitabxana işinin avtomatlaşdırılması", "internet xidməti" və s. mövzularda iməcliklər keçirildi.

Məşğələlərdə - M.F.Axundov kitabxanasının direktoru Leyla Qafurova, müavinləri Məlekxanım Hacıyeva, Kərim Tahirov və Rafael Muradov, mütəxessislər - Rəna Əsedova, Əminə Ağayeva, Sona Abbasova iştirak və çıxış etmişlər.

Eləcə də ABŞ səfirliyinin təhsil və informasiya mərkəzinin direktorları Pol Miller və Severina Kolarova öz təcrübələrindən və son illərdə Azərbaycan kitabxanaçıları ilə əməkdaşlıqdan danışmışlar.

Onlar bir daha qeyd etmişlər ki, müasir kitabxanaların fondunun tərkibi dəyişir. İndi kitabxana fondlarına çoxlu sidiromlar, disklər, elektron kataloqlar və s. daxll olmaqdadır.

Hər bir demokratik cəmiyyətin, suveren respublikanın kitabxanası bu fondu qəbul etmək və saxlamaq imkanına malikdir. Bunlardan istifadə etmək üçünsə kitabxana işçiləri kompüterdən istifadə etməyi, internetdə işləməyi bacarmalıdırlar.

ABŞ mütəxəssisləri bu istiqamətdə proyektlər hazırlayır və kitabxanaçıların hazırlığını təşkil edirlər.

Seminar müşavirə 3 gün davam etdi.

Bu kimi seminarlar ardıcıl olaraq Əli Bayramlı, Şamaxı, Lənkəran, Quba bölgələrində keçirilmişdir.

Lakin bu qrupda - Şəki şəhərində keçirilən seminar- müşavlrə və dinləyiciərin fəallığı digər müşavirələrdən xüsusi fərqləndi. Və bu müşavirənin nəticələri daha effektli oldu.

Ümid edirik, Şəki kitabxanaları müstəqil respublikamızın inkişafı yolunda müasirləşməyi və yüksək xidmətləri ilə seçiləcək və tezliklə, bu müşavirədə irəli sürülən proyektlərin tezliklə tətbiqinə nail olacaq.



# TANINMIŞ BİOLOQ-ALİM ƏLİ HƏSƏNOV NƏDƏN NARAHATDIR?

Əli Məhərrəm oğlu Həsənov 1935-ci ildə Gürcüstan Respublikasının Bolnisi rayonunun Faxralı kəndində dünyaya göz açmış, orta təhsilini həmin kənddə almışdır. 1954-59-cu illərdə BDU - nun biologiya fakültəsində oxumuş, 1965-ci ildə aspiranturaya daxil olmuş, 1968-ci ildə dissertasiya müdafiə edərək, biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1998-ci ildən ADPU-nun kimya-biologiya fakültəsində biologiyanın tədrisi metodikası kafedrasının müdiridir. 30-dan çox elmi-metodiki əsərin və dərs vəsaitinin, 150-dən çox elmi məqalənin müəllifidir.

**- Əli müəllim, çalışdığınız ali təhsil ocağının bu günkü fəaliyyəti barəsində nə deyə bilərsiniz?**

- Hörmətli alimimiz Bəhlul Ağayev ADPU-nun rektorudur. O, bu təhsil müəssisəsinə rektor vəzifəsinə tə`yin olunduqdan sonra tədrisin səviyyəsi xeyli yüksəlmişdir. Nizam - intizam qaydalarına ciddi riayət olunur. Fakültəmizin dekanı Ələkbər Qurbanovun da əməyini xüsusi qeyd etmək istəyirəm. Onun sə`yi nəticəsində fakültəmizdə tədris və mənimsənilmə faizi yüksək səviyyədədir.

**- Əli müəllim, biz bilirik ki, siz bir çox elmi əsərlərin müəllifisiniz...**

- Bəli, mən orta məktəblərin III, IV, V sinifləri üçün stabil dərsliklər, həm rus, həm də Azərbaycan dilində kitablar yazmışam, VI sinif üçün "Təbiət" eksprimental dərsliyini yazmışam. Bununla bərabər ali məktəblər üçün hazırlanmış "Biologiyanın tədrisindən mühazirələr", "Təbiətşünaşlığın əsasları və təbiətşünaslığın tədrisi metodikası" (bakalavr hazırlığı üçün) və bir çox dərslik və dərs vəsaitlərinin müəllifiyəm.

**- Əli müəllim, qazandığınız uğurlardan razısınızmı?**

- Bəli respublikanın qabaqcıl maarif xadimiyəm. Respublika təhsil nazirliyinin Xudu Məmmədov adına mükafatın laureatıyam. 1998-ci ildə Beynəlxalq Cəmiyyətinin diplomunu almışam. 1999-cu ildə həmin cəmiyyətin buraxdığı ingiliscə "Kim-kimdir" 800 səhifəlik kitabında Azərbaycandan Cəlal Əliyev, Dəmir Hacıyev və mənim haqqımda bəhs edilir. BBC-nin təsis etdiyi "Qızıl medal" və "Qızıl ulduz" ordenlərinə layiq görülmüşəm. 1998-ci ildə Amerika bioloqları institutunun "Qızıl heykəl" mükafatını almışam. Təhsil Nazirliyinin iki Elmi Metodik Şurasının, institutun müdafiə şurasının üzvüyəm.

**- Əli müəllim, siz öz gərgin əməyinizin sayəsində böyük uğurlara nail olmusuz. Ancaq bütün bu uğurlarla yanaşı eşitdiyimizə görə sizin kimi bir alimin narazılığına səbəb olan bə`zi problemlər də var?**

- Bəli siz tamamilə haqlısınız. Mənim bir müəllif kimi hüquqlarım pozulub. Belə ki, Təhsil Nazirliyi ilə müəllifi olduğum kitabları nəşr etdirmək üçün razılığa gəlmişik. Bu razılığa əsasən nəşr olunan kitablar üçün verdiyim materialların qonorarını "XXI əsr nəşrlər evi"ndən almalı idim. Belə ki Təhsil Nazirliyinin nümayəndələri bu işi "XXI əsr nəşrlər evi" nəşriyyatına həvalə ediblər. Ancaq qonorarın verilməsi problemə çevrilib. Bütün bunlardan əlavə mənim adıma nəşr olunan kitabda mənim icazəm olmadan Azərbaycan Respublikasının Dövlət Himni rus dilinə tərcümə olunub çap edilib.

Bu problemlərlə əlaqədar biz bəzi orqanlarla əlaqə saxladıq. Bizə rəsmi mə`lumat veriləcəyini bildirdilər. Araşdırmalar davam edir, nəticəsi barədə isə qəzetimizin növbəti sayında mə`lumat veriləcək.

**ELNARƏ, KÖNÜL**

## SALYAN KƏND TƏSƏRRÜFATI TEXNİKUMU NƏ ÜÇÜN BAĞLANIR?

***Salyan rayonu respublikamızda kənd təsərrüfatı sahəsi üzrə inkişaf etmiş rayonlardan biri olduğuna görə kənd təsərrüfatında apaırılan aqrar islahatlarla əlaqədar olaraq biz Salyan rayonuna e`zam olunduq. Bu sahədə araşdırmalar aparmaq üçün Salyan rayon kənd təsərrüfatı texnikomunun müəllim kollektivi ilə görüşdük, rayonda aparılan aqrar islahatlar barədə onların fikirlərini bilmək istədik. İlk müsahibimiz Salyan kənd təsərrüfatı texnikumunun direktoru Ağaxəlil İbrahimov oldu.***

**- Ağaxəlil müəllim, texnikumun fəaliyyəti barədə nə deyə bilərsiniz?**

- Firuz Məlikov adına Salyan kənd təsərrüffatı texnikumu 1924-cü ildə yaradılmışdır. Görkəmli akademiklərdən Firuz Məlikov, Ağaxan Ağabəyli, Sosialist Əməyi Qəhrəmanı Sabir Əhmədov kimi yüzlərlə elm adamları və kənd təsərrüffatı mütəxəssisləri bu elm ocağının məzunları olmuşlar. Kənd təsərrüffatı elmləri namizədi Zöhrə Tahirova 1991-ci ildən bu texnikumda çalışır. Hazırda o 18 elmi məqalənin müəllifidir. Salyan kənd təsərrüffatı texnikumunda ixtisaslı kənd təsərrüffatı mütəxəssislərinin hazırlanmasında Zöhrə müəllimənin böyük əməyi olmuşdur. Hal-hazırda texnikumda 3 ali və bir neçə elmlər namizədi çalışır. Texnikumumuzda olan çox zəngin əyani vəsaitlər və inventarların çox hissəsi müəllimlərin öz vəsaitləri hesabına alınmışdır. Texnikumun Cəlal Əliyevin rəhbərliyi altında yaradılmış 25 hektara yaxın təcrübə sahəsi vardır. Bu sahədən bu il çoxlu pambıq yığılıb və onun gəliri hesabına çoxlu inventarlar alınıb.

**- Ağaxəlil müəllim, aldığımız məlumata görə rəhbərlik etdiyiniz təhsil müəssisəsi bağlanmaq üzrədir və bunun əsas səbəbini nədə görürsüz?**

- Keçən il texnikumda 14 qrup üzrə 460 tələbə təhsil alırdı. Hal-hazırda dörd qrup təhsil alır və iyun ayına kimi iki qrup təhsilini başa vuracaq. Qrupların sayının keçən ilə nisbətən azalmasının səbəbi texnikumun Salyan rayonunda bağlanması və Sabirabad rayonuna köçürülməsidir.

Qəribədir, 77 illik tarixi fəaliyyətə malik olan zəngin təhsil bazası olan yüksək ixtisaslı kadrlar çalışan təhsil ocağı hansı əsasla bağlanmalıdır?

Salyan kənd təsərrüfatı rayonu olduğu halda bu rayonda kənd təsərrüfatı texnikumunun bağlanması nə dərəcə düzgündür?

**Emin NƏCƏFOV**

# ŞƏKİ ŞƏHƏR TİBB TEXNİKUMU

***Müstəqil respublikamızın milli təhsil sistemində uğurlu inkişaf xəttini seçən tədris müəssisələri keçid dövrünün çətinliklərini geridə qoyaraq bir çox problemləri daxili imkanlarını səfərbər edərək həll etməyə çalışırlar.***

Şəki Şəhər Tibb Texnikumunun direktoru Elmira Ələkbər qızı Hacıyevanın maraqlı söhbət əsnasında qeyd etdiyi faktlar bu qənaətimizi bir daha təsdiq etmiş olur.

Artıq neçə illərdir ki, bu ixtisas məktəbinə Şəkinin və yaxın bölgələrin səhiyyə sahəsinə marağı olan gənclər test üsulu ilə qəbul olunurlar.

Texikumun maddi-texniki bazası zəngindir və müasir standartlara cavab verir. Belə ki, məktəb kompüter, surətçıxarma texnikası ilə təmin olunub. Mövcud laboratoriya kabinetləri bütün avadanlıqla təchiz edilib.

Bu il texnikumun binası tam təmir olunub və bu işlərə 300 milyon manat vəsait xərclənib. Eləcə də 600 milyon manatlıq inventar alınıb. Foyedə möhtərəm prezidentimizə həsr edilmiş "Heydər Əliyev" guşəsi gələnlərin diqqətini çəkir.

Texnikumun yüzlərlə tələbəsinin yüksək səviyyəli kadr kimi yetişməsində müəllim heyəti və məktəbin rəhbərliyi əlindən gələni əsirgəmir. Onlar üçün texnikumun bazasında ingilis dili və kompüter kursları təşkil olunub.

Tələbələr müntəzəm olaraq şəhər və bölgə üzrə keçirilən tədris və idman olimpiadalarında iştirak edir, fəxri fərmanlara layiq görülürlər.

Məktəbin kollektivi tez-tez hərbi hissələrdə görüşlər keçirir və bu günə qədər öz imkanları hesabına 500-600 dollar məbləğində köməklik də göstərmişlər. 5 şəhid ailəsi himayəyə götürülüb, onlara da yardımlar edilir.

Texnikumda 3 fakültə üzrə kadr hazırlanır: müalicə işi, mama-ginekoloq, tibb bacısı.

Ödənişli qruplar üstünlük təşkil edir. Məktəb rəhbərliyi imkansız tələblərə təhsil haqqının keçirilməsində güzəştli imkanlar yaradır, yeri gəldikcə onlara kömək edir.

Oktyabrın 15-də texnikumun yeni tikilib istifadəyə verilmiş akt zalında Azərbaycanın dövlət müstəqilliyinin 10 illik yubileyi şərəfinə təntənəli tədbir keçirildi. Tədbirdə Şəki şəhər ictimaiyyətinin fəxri üzvləri, rəhbər şəxslər, təhsil işçiləri iştirak edirdilər.

Şəki Şəhər Tibb Texnikumunun tələbə və müəllim kollektivini, başda direktor Elmira xanım olmaqla Azərbaycan xalqını bu əlamətdar tarix münasibətilə bir daha ürəkdən təbrik edir.

**İsmayılova Elnarə**

# "BİR TƏBİB MƏHARƏTİ YÜZLƏRLƏ DÖYÜŞÇÜNÜN HÜNƏRİNDƏN ÜSTÜNDÜR"

**HOMER**

***Həkim - bu sənətə yiyələnən insan oğlu bu şərəfli sahənin öhdəsindən layiqincə gəlməli, "Hippokrat" andına sadiq qalmalıdır. Yüksək ehtiramla yazmağa təşəbbüs etdiyim şəxs əsl həkimdir desəm, yanılmaram.***

***İmişli rayonunda səhiyyə sistemində aparılan islahatların gedişini xarakterizə etmək üçün yolumu Yeni Bəhrəmtəpədəki "Fin şəhərciyi"ndən saldım. Bu şəhərciyi İmişli və ətraf rayonlarda yaxşı tanıyırlar. Şəhərcik 1994-cü ildə salınıb və Amerikanın "Amkor" təşkilatının himayəsinə götürülüb. Buraya Bəhmən Şükürov rəhbərlik edir.***

Məntəqənin İmişli Rayon Mərkəzi Xəstəxanası ilə sıx əlaqələri var. Bu xəstəxananın baş həkimi isə Tahir Mikayılovdur. Müdrik Şərq hikmətində deyilir: "Loğmanların əlində xəstələri sağaltmaq üçün 3 mühüm çarə var: biri dərmanlar, biri cərrah bıçağı, digəri şirin sözdür". Şərq müdrikləri ilk iki vasitəni kənara qoyaraq üstünlüyü şirin sözlə müalicəyə verirlər.

Tahir həkimin də üstünlüyü onun insanlara həddən artıq mehribanlığında, səmimiyyətindədir.

Tahir Mikayılov öz həyatında, peşəsində daima çətinliklərə mərdliklə sinə gərmiş, yorulmaq bilmədən çalışmış, vicdanını məşəl edərək qaranlıqları işıqlandırmışdı. Tahir həkim həm də vətəninə, millətinə xidmətləri ilə bir ziyalı kimi yüksək zirvələrə ucalmışdır. Bir rəhbər kimi tələbkar və məsuliyyətli olması ilə Mərkəzi Xəstəxanada düzgün iş prinsipi və yüksək atmosfer yaratmağa müvəffəq olub. Bunun nəticəsidir ki, rayon üzrə yoluxucu xəstəliklərin qarşısının alınmasına, malyariya xəstəliyinin minimuma endirilməsinə nail olunub. Günün hansı vaxtı olursa-olsun, müraciət edən xəstələrə kömək etməkdən mənəvi zövq alır Tahir həkim. Və onu müalicə etdiyi xəstənin kimliyi, nəçiliyi maraqlandırmır. Bu dünyada onun üçün yalnız xəstə və ona əzab verən xəstəlik var. Böyük zehni və fiziki gərginlik tələb edən bu ağır zəhmətin əvəzini ödəməyin mümkünlüyünü bir daha dərk edirik. İnsanlara qayğı və xeyirxahlıq kimi məziyyətləri təbiətində, varlığında yaşadan, xəstələri sağlamlığa qovuşduran daha bir səhiyyə fədaisi - tibb məntəqəsinin tibb bacısı Şəkər Quliyeva diqqətimizi çəkdi. Şəkər Quliyevanın xəstələrə məhəbbət və xeyirxahlığından, onların bütün dərdlərinə şərik olmasından, xəstələr arasında fərq qoymamasından, sənətinə hörmətlə yanaşmasından həmsöhbətlərimiz ağızdolusu danışdılar.

O, bu kimi yüksək mənəvi xüsusiyyətləri ilə özünü xəstələrə və həkim kollektivinə sevdirə bilmişdir. Kaş bütün tibb işçiləri öz peşəsinə Şəkər xanım kimi vicdanla, şərəflə yanaşaydı.

Qeyd olundu ki, İmişli rayon İcra Hakimiyyətinin başçısı Vidadi Quliyev müntəzəm olaraq şəhərciyə gəlir, həkimlərlə, sakinlərlə görüşür. Son görüşdə o, qışa hazırlıqla bağlı bütün imkanlardan istifadə edəcəyini bildirdi. Öz növbələrində tibb məntəqəsinin baş həkimi Bəhmən Şükürov var qüvvəsi ilə çalışacaqlarına söz verdi. Məcburi köçkün soydaşlarımız pulsuz tibbi xidmətdən, göstərilən qayğıdan razılıq etdilər.

Ötən ilin mayında Mərkəzi Xəstəxananın baş həkimi Tahir Mikayılovun rəhbərliyi ilə həkimlər Fərzulla Həsənov, Nazim İmanov, Əliş Vəliyev, Ələm Abbasovun əlavə olaraq dörd tibb bacısı, dörd xadimənin gərgin zəhməti ilə şəhərcikdə 86 qaçqın ailələrinin uşaqları üçün təmənnasız sünnət mərasimi keçirildi. Mama-ginekoloq Rəxşəndə xanım isə hər ay müntəzəm olaraq şəhərcikdə reydlər keçirir, qadınları müayinə edir. Tahir həkimlə səmimi söhbətimizdən xüsusi məqamları qeyd etmək istərdik.

O, bildirdi: "İnsan həyatına ucuz münasibət bəsləyib, biganəlik edən, peşəsinə hörmətlə yanaşmayan həkimlər sənət yolunda ucalıb xoşbəxt ola bilməzlər. Həkimlik etikasının yaranması böyük Hippokrat andı ilə bağlıdır. Hippokrat andına əsasən həkimin bir məqsədi olmalıdır:

"Yalnız və yalnız xəstəni müalicə etmək". Mənə elə gəlir ki, insan həyatını qorumaq, insan sağlamlığını, insan xoşbəxtliyini qorumaq üçün keçirilən narahatlıq hissləri əsl həkim üçün mənəvi rahatlıqdır. Həkimdə özünə, ixtisasına inam olduqda, peşə qüruru ilə ləyaqətini qiymətləndirməyi bacardıqda, xəstənin gözündə daima ucalır. Müalicə prosesi özlüyündə həkimlə xəstəni yaxınlaşdırır, doğmalaşdırır. Bu doğmalığı qiymətləndirmək lazımdır".

Biz də Tahir həkimin timsalında ömrünü xəstələrin və daha doğrusu, xalqımızın sağlamlığı yolunda şam kimi əridən səhiyyə işçilərinə öz minnətdarlığımızı bildiririk.

**Mehman**



# ORUCLUQ VƏ ONUN FƏZİLƏTLƏRİ

Mübarək Ramazan ayıdır. Bütün müsəlman dünyasında müsəlmanların cismən və ruhən təmizlənən, təzələnən günləridir. Orucluğun məziyyətləri, özəllikləri haqqında məlumat verməsi xahişilə Hacı Əjdər bəy məscidinin ("Göy məscid"in) axundu, Qafqaz Müsəlmanları İdarəsinin qazısı Hacı İsmayıla müraciət etdik. O, dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Ey Allaha iman gətirənlər! Sizinçün yazılıb bir ay oruc, necə ki, sizin ata-babalarınız bir ay oruc tutublar. Əgər siz bu orucu tutsanız, dünya xoşbəxtliyinə, axirət xoşbəxtliyinə, ola bilsin ki, çatasınız, yetişəsiniz.

Allah- teala Adəm-əleyhisalama buyurmuşdu ki, buğdaya yaxın olma. Amma Adəm buğdaya yaxın oldu və Allah-teala onu behiştdən çıxartdı. Bundan sonra onun göyçəkliyi çox ibadət etməkdən, ağlamaqdan əlindən getdi və bədənində olan əti "əridi" Dəryada balıqların, səhrada ahuların, göydə mələkələrin ürəkləri dərdə gəldi. Çünki zamanında Peyğəmbər ağlasa, insanın qəlbi açılmaz, xilqətə kədər gətirər. Onlar Allaha üz tutdular:

- Nə olar ki, bu bəşər aləminin atasını bağışlayasan!

Allah-təbarəki və teala əmr buyurub, Cəbrayıl-əleyhisalam nazil olub, deyib:

- Ya Adəm, Allah-təala istəyib ki, səni bağışlasın.

Adəm cavab verməyib, ağlamağını bir az da artırıb. İkinci dəfə yenə də belə. Üçüncü dəfə buyurub:

- Ya Adəm, Yerin-göyün Rəbbisi, sizi-bizi yaradan Allah əmr buyurub ki, ondan istəyəsiz bağışlasın.

Adəm buyurub:

- Ya Cəbrayıl, mənim üzüm yoxdur, mən üzümü Allah dərgahına tutam ki, o, məni bağışlasın.

Allah-təbarəki və təala buyurar:

- Ya Cəbrayıl, Adəmə mənim salamımı yetir, de ki, həyasına görə bağışladım onu.

Ya Cəbrayıl, əzan sübh vaxtıdı, bir əzan de, iki rükət sübh namazını qıl.

Cəbrayıl-əleyhisalam əzan dedi, iqamə dedi, babamız Adəm-əleyhisalam sübh namazını qıldı, Allah-təala başının gözəlliyini ona qaytardı, Zöhr namazını qıldı, sinəyə qədər, əsr namazından sonra kəmər bağlanana qədər, şam namazını qıldı dizinə qədər, xiftə (yatı) namazından sonra isə bütünlüklə zahiri gözəlliyi bərpa olundu. Lakin yenə də başladı ağlamağa.

Cəbrayıl-əleyhissalam buyurar:

- Ya Adəm, indi ki, Allah-təala sənin günahından keçib, bəs indi niyə ağlayırsan?

- Ya Cəbrayıl, mənim daxili aləmimdə ağrı var.

Allah-təbarəki və təala əmr buyurar:

- Ya Cəbrayıl, də ki, istəyirsə daxilən pak olsun, onda gərək bir ay oruc tutsun.

Bu oruc peyğəmbərlərə gəlib ta Məhəmməd peyğəmbərə çatıb. Ancaq əvvəlki peyğəmbərlərin vaxtında oruc tutmaq ağır, qaydaları çətin olub. Allah-təbarəki və təala bizim peyğəmbərin, onun səhabələrinin hörmətinə bu qaydaları sadələşdirib. Yə`ni orucluq vaxtı gün batandan, iftardan sübhə qədər bütün işləri Allah halal buyurub: İnsan yata da, ailəsi ilə ünsiyyətdə də ola, hansı halal nə`mətdən nə qədər xətridir yeyə də bilər.

Allahla bəndə arasında nə qədər fərq varsa, Allah ayı ilə qalan ayların da savabında, edilən ehsanatlarda, əməllərdə o qədər fərq var. İslam peyğəmbəri buyurub: " Ey Allaha iman gətirənlər! Allah-təbarəki və təalanın rəhmət ayı sizə üz tutub gəlib. Allahın rəhmət ayı, Allahın məxfirət ayı, Allahın yanında bu Ramazan ayı bütün aylardan şərəflidir, onun günləri bütün günlərdən şərəflidir, onun gecələri bütün gecələrdən fəzilətlidir, onun saatları bütün saatlardan daha şərəflidir..."

İslam peyğəmbəri sonra buyurub: "Özünüzdən imkansızlara, fəqirlərə imkan əlinizi uzadın. Qocalarınıza ehtiram edin. Atalarınızı, analarınızı vüqarlı tutun, onların dediklərinə əməl edin. Allahın bu rəhmət ayında kiçiklərinizə rəhm edin. Yeddi arxa döneninizi gedin başa çıxın, onları ziyarət edin, imkansızlarına imkanlı əlinizi uzadın."

Səfərdə olanlara, hamilə qadınlara, qocalara, uşaqlara (həddi-buluğa çatmayanlara) xəstələrə oruc vacib deyil.

İslam peyğəmbəri buyurub: "Doqquz şeyə zəkat var. İnsanın bədəninin zəkatı orucdur".

Bir neçə kəlmə də əhyə gecələri barədə. Biz deyərik "ölü", ərəb deyər "əhyaun". İslam peyğəmbəri buyurub: "Yuxu ölümün qardaşıdır". Yəni əhyaşam namazından, gün batandan sübhə qədər yatmamaq, oyaq qalmaqdır. Bu, Allah-təala yanında çox şərəfli bir axşamdır. Quranın "Qədr" surəsində Allah-təala buyurur: "...Mən Quranı Qədr axşamında nazil etmişəm. O Quranın hörmətinə, sənin hörmətinə və sənin balalarının hörmətinə həmin axşam kim gün batandan sübhə qədər oyaq qala, müraciət edə, övlad istəyə, dövlət istəyə, əminamanlıq istəyə, ömür istəyə, xalqını istəyə, ölənlərini istəyə, həmin axşamın şərəfi min aydan artıqdır".

Əhya gecələri Ramazan ayının 19-dan 20-nə, 20-dən 21-nə, 22-dən 23-nə və 26-dan 27-nə keçən gecələrdir. Din təfsirçiləri hesab edirlər ki, Quran ilk üç gecədən birində nazil olub. Amma bəziləri deyirlər ki, Ramazanın 27-si də əhya axşamı ola bilər.

Bu il orucluq noyabrın 16-dan dekabrın 15-nədəkdir.

Allah-təalanın bu əzəmətli, şərəfli, fəzilətli ayında xalqımıza səadət, işğal olunmuş torpaqlarımızın tezliklə azad edilməsini arzulayıram.!

**Söhbəti yazdı: Ş.ABBAS**



*Hacı Fərhadın qərəzli mövqedən tənqid olunması zamanı heç kəs nəzərə almadı ki, yarmarkada və ətraf köşklərdə spirtli içkilərin satılmasına qadağa qoymaq Hacı Fərhadın səlahiyyətləri daxilində deyil.*

*Azərbaycan dünyəvi dövlətdir və dünya dövlətlərində olduğu kimi respublikamızda istənilən fiziki şəxs dövlətin icazəsi ilə, qanuni şəkildə istədiyi yerdə spirtli içki və tütün məmumatları sata bilər.*

# "Həqiqəti görməyi bacarmalıyıq"

*Tarixən qələm sahiblərinin cəmiyyətin formalaşmasında xüsusi rolu olub. Məhəmməd (s) peyğəmbər buyurmuşdur: "Alimin bir damla mürəkkəbi yetmiş şəhidin qanından üstündür".*

*Çox təəssüf ki, müasir cəmiyyətin qələm sahibləri olan jurnalistlər nəinki öz qələmlərinə hörmət etmir, əksinə öz yaradıcılığı ilə xalqımızın inkişafına nail olmağa çalışan qələm sahiblərinin şəxsiyyətinə də hörmət qoymağı bacarmırlar. Beləleri öz mövqelərini açıqlayaraq cəmiyyətin beyninə səhv düşüncələrini möhkəmlədirlər.*

*Jurnalist sənətinə belə səhlənkar münasibət çox vacib və məni narahat edən bir məsələdir.*

*Son zamanlar bəzi qəzet səhifələrində Bakıxanov qəsəbəsində yerləşən yarmarka və onun yanında tikilmiş məscidin ətrafında alkoqollu içkilərin satıldığı faktları qabardılaraq bu işdə təqsirkarlar axtarılıb.*

*Məlumdur ki, yarmarkanın müdiri tanınmış xeyriyyəçi, onlarla kitab müəllifi Hacı Fərhad Mirzədir.*

*Əgər Hacı Fərhad rəhbəri olduğu ticarət mərkəzində bu satışa qadağa qoysa qanunla günahkar hesab ediləcək.*

*Sahib olduğu ərazidə isə məscid tikdirmək gəlir məqsədilə yox, əhalinin rahat, iş şəraitində ibadət etməsi üçün tikilib.*

*Əgər nəzər yetirsək, bütün inkişaf etmiş müsəlman dövlətlərində ticarət mərkəzləri yanında məscidlər fəaliyyətdədir.*

*Hacı Fərhad öz dini kamilliyini imkanları daxilində olan əməllərlə sübut edib. Onun himayəsində onlarla qaçqın ailəsi, şəhid ailələri, əlillər və imkansız ailələr mövcuddur. Hacı Fərhadın xeyriyyəçiliyinə belə qərəzli, xırda mövzular kölgə sala bilməz. Ona ilahidən bəxş edilən böyük ürək, vətənə, millətə sevgi, məhəbbət, şəxsiyyətinə hörmət hər insana qismət olmayan keyfiyyətlərdir.*

*Bu əvəzsiz insanın qiymətini verməyi bacarmalıyıq. Ən azı xoş sözlə, düzgün münasibətlə.*

***Ülvi Səfail oğlu***

*Qədim mədəniyyət mərkəzi olan Şəkidə Azərbaycanın müstəqillik qazandığımdan ötən 10 ildə bu sahədə əldə edilən nəticələrin yönümünü xarakterizə etmək üçün Şəki şəhər mədəniyyət şöbəsinin müdiri İbrahim Rəsulovla söhbətimiz demək olar ki, bütün maraqlandığımız məsələləri əhatə etdi. İbrahim müəllimin qeyd etdiklərindən mühüm hissəni oxucularımızın nəzərinə çatdırırıq:*

# QƏDİM MƏDƏNİYYƏT MƏRKƏZİ- ŞƏKİ

"Şəki şəhər əhalisinin mədəni marağını, zövqünü təmin etmək, onların mədəniyyət və incəsənətə olan müxtəlif tələbatını ödəmək, gənc nəsildə yüksək mədəni dünyagörüşün formalaşmasına kömək etmək məqsədilə regionumuzda 87 kitabxana, 70 klub müəssisəsi, 6 muzey, 1 qoruq, bir uşaq incəsənət mərkəzi, istirahət parkı, 1 dövlət rəsm qalereyası fəaliyyət göstərir.

Bu sahələrdə çalışan mədəniyyət işçilərinin ümumi sayı isə 1100 nəfərdir.

Təbii ki, onların 80 faizini qadınlar təşkil edir.

Şəki şəhər mədəniyyət şöbəsi qeyd olunan bu müəssisələrdən hər birinin fəaliyyət stabilliyini qorumağa, problemlərini mümkün qədər tez həll etməyə çalışır.

Şöbəmizin əməkdaşlarının bilavasitə iştirakı ilə rayon özfəaliyyət kollektivlərinin rayon ərazisində yerləşən hərbi hissələrdə çıxışları təşkil olunur. Mütəmadi olaraq doğma yurd-yuvalarından məcburi köçkün düşmüş soydaşlarımız üçün konsertlər keçirir, şəhər kənarında yerləşən turizm bazasında onlar üçün silsilə tədbirlər təşkil edirik.

Xüsusən əhalinin asudə vaxtının təşkilində və maraqlı keçirilməsində böyük rol oynayan istirahət parklarında kütləvi tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, bu gün şəhərimizdə M.F.Axundov adına qocalar parkı, onun "20 Yanvar" adlı filialı bütün şəkililərin və qonaqların ən sevimli istirahət guşələrinə çevrilib.

Son zamanlarda Şəki şəhər İcra başçısı hörmətli Əşrəf Məmmədovun rəhbərliyi və öz işinə diqqəti, qayğıkeşliyi nəticəsində şəhərdə aparılan abadlıq-quruculuq işləri bir çox park və xiyabanların da börünüşünü kökündən dəyişmişdir. Eləcə də buradakı əyləncə mexanizmləri saz vəziyyətə salınmış, yeniləri gətirilmişdir. Elə bu il park və xiyabanlarda 600-dən çox bəzək ağac və gül kolları əkilmiş, su təchizatı təmin olunmuşdur. Gözəl fəvvarə və hovuzlar insanların zövqünü oxşayır.



Bu kimi tədbirlər biz mədəniyyət işçilərinə daha uğurla çalışmağa və öz üzərimizdə dövlət qayğısını hiss etməyə əsas verir.

Builki fəaliyyət göstəricilərimizdən danışarkən qeyd edim ki, Şəkinin ən qocaman ansamblının - "Zirvə" xalq instrumental ansamblının 30 illik yubileyi keçirildi. Sabit Rəhmanın ev muzeyinin açılış mərasimi oldu ki, burada hörmətli nazirimiz Polad Bülbüloğlu da iştirak etdi. Təkcə 11 ayda mədəniyyət naziri 2 dəfə Şəki şəhərində olmuşdur.

Şəkidə incəsənət üzrə təhsil müəssisələri günümüzün reallıqlanna tam cavab verən şəraitdə gələcək nəslimizin təlim-tərbiyə işləri ilə məşğul olur. Bu məktəblərdə 500 nəfər yüksək ixtisaslı müəllimlər çalışır. Şagirdlərimizin sayı isə 2000 nəfərə çatıb. Onlar müntəzəm olaraq baxış müsabiqələrdə, rayon, bölgə, respublika üzrə festivallarda uğurla çıxış edirlər.

Biz Şəkidə qədim sənət növlərinin, xüsusilə Şəkinin özünəməxsus xalq tətbiqi sənətinin inkişafına, təbliğinə ciddi diqqət yetiririk. Sevindirici faktdır ki, bu sahə üzrə respublika üzrə baxış müsabiqədə Şəki ustaları I, II, III dərəcəli diplomlara layiq görülüb. Belə hadisələr sənətkarların, incəsənət fədailərinin kövrək qəlbində qurub-yaratmaq eşqini daha da alovlandırır.

Bir mədəniyyət şöbəsinin rəhbəri kimi mənim üzərimə mədəniyyət ocaqlarımızın maddi-texniki bazasının möhkəmləndirilməsi vəzifəsi düşür. Bu yönümdə məqsədyönlü işlər aparılıb və aparılmaqdadır. Konkret olaraq R.Əfəndiyevin ev muzeyi, Dövlət rəsm qalereyası, Ü.Hacıbəyov adına mədəniyyət muzeyində əsaslı təmir işləri görülüb.

Muzeylərimizin kolleksiyasının təşkilinə, qorunması işlərinə diqqət yetiririk. Son 2 ildə Şəki muzeyləri üçün 800-dən artıq eksponat toplanmışdır.

Müstəqillik qazanmış Azərbaycan respublikasının elə bir milli tədbiri, bayramı olmur ki, orada Şəki incəsənət ustaları iştirak etməsin.

Biz incəsənət nümayəndələri isə illərdir müharibə vəziyyətində olan dövlətimizin yeniyetmə və gənclərinin vətənpərvərlik ruhunda yetişmələri naminə mədəniyyətimizin gücündən istifadə edirik. Respublikamızın prezidenti möhtərəm Heydər Əliyevin müvafiq sərəncamına uyğun olaraq milli ordu sıralarına çağırış zamanı hərbi komissarlıqda gənclərimizin yola salma mərasimi tədbirində çıxış edərək bu mərasimin daha təntənəli, bayram əhval-ruhiyyəli etməyə çalışırıq.

Yeni əsrin ilk ili xalqımız üçün olduqca əlamətdar tarixlə yadda qaldı. Oktyabrın 18-i milli dövlət müstəqilliyimizin 10-cu ildönümünü qeyd etdik. Bu tarixə həsr olunmuş bayram tədbirlərində iştirak etmək üçün Şəkinin Şorad kənd klubunun "Abaşi" rəqs ansamblı Mədəniyyət Nazirliyi tərəfindən dəvət aldılar.

Şəkinin bütün mədəniyyət ocaqlarında - klublarda, kitabxanalarda, muzeylərdə müstəqillik mövzusunda, son 10 ili əhatə edən sərgilər, foto-stendlər, oxucu konfranslan, elmi-ədəbi konfranslar, görüşlər, konsertlər təşkil edildi.

Fürsətdən istifadə edib bütün xalqımıza ən səmimi arzularımı çatdırıram.

Azərbaycan əsrlər boyu - istər azad, istər imperiya əsarətində olduğu dövrdə öz milli mədəniyyətini yaratmış, yaşatmışdır.

Bu gün müstəqil dövlətimizin inkişafı naminə ilk öncə tariximizi, mədəniyyətimizi qorumalı, olduğu kimi dünya miqyasında tanıtmalıyıq. Bu yolda da biz - mədəniyyətimizin fədakar üzvləri əlimizdən gələni əsirgəməyəcəyik."

# ŞƏKİLLƏRDƏ CANLANAN XATİRƏLƏR

***Qədim mədəniyyət şəhəri Şəkidə ömrünü incəsənətə fəda etmiş insanlar çoxdur. Onlardan biri ilə - müasir Şəki şəhəri ictimaiyyətində öz sənəti, qabiliyyəti və bu keyfiyyətlərdən yaranan uğurlarla mühüm mövqe tutan, tanınan və sevilən foto ustası Seymur Qasımzadə ilə tanışlığımız çox maraqlı materialın mövzusu oldu.***

Seymur Allahyar oğlu Qasımzadə 1962-ci ildə Şəkidə anadan olub. 1979-84-cü illərdə o, ADU-nun tətbiqi riyaziyyat fakültəsini bitirib. 1984-cü ildən 1991-ci ilə kimi Bakıda ETİ-da kiçik elmi işçi vəzifəsində çalışıb. 1991-ci ildə Şəki şəhərində fəaliyyətini davam etdirərək fizika-riyaziyyat və humanitar təmayüllü litseydə informatika fənnini tədris edir.

Lakin nə dəqiq elmin incəlikləri, nə də müəllimlik Seymur müəllimin maraq dairəsini əhatə edə bilmir və o özünü təsdiq etmənin yolunu incəsənətdə görür. Beləliklə, o, 1994-cü ildən etibarən fotoqraf peşəsinə ömrünü bağlayır.

Fotoaparat və canlanan kadrlar onu ildən-ilə professional usta kimi bütün şəhər ictimaiyyətinə tanıtdırdı. Bu gün Şəki şəhərində elə bir şəxs tanmazsan ki, fotoqraf Seymurun yaradıcılıq işlərini görməsin, qiymətləndirməsin və onun xidmətlərindən istifadə etməsin.

Tanrı ona gözəl zövq, duyğu və bu hissləri canlandıran istedad bəxş edib.

Seymurun gözəl vokal səsə və ifaçılıq məharətinə malik olduğu da gizli fakt deyil. Bu keyfiyyəti onu bir qədər də məşhurlaşdırdı. Artıq Şəki şəhərində keçirilən elə bir tədbir yoxdur ki, Seymur ora dəvətlənməsin və iştirakçıların arzusunu yerinə yetirməsin. Bu tədbirlər həm onun ifa etdiyi musiqilərlə rövnəqlənir, həm də çəkdiyi kadrlarda əbədi iz qoyur.

Xüsusən 2001-ci ilin yayında yaddaqalan hadisəni xatırlamamaq mümkün deyil. Belə ki, həmin günlərdə Şəki şəhərində Dram Teatrının açılışı ilə əlaqədar geniş tədbir keçirilirdi. Bu tədbirdə həm Şəkinin rəhbər nümayəndələri, həm də Bakıdan mötəbər qonaqlar iştirak edirdilər.

Maraqlı tədbir proqramında Seymurun çıxışı da gözlənilirdi. Onun ecazkar səsi və ifa etdiyi nəğmələri bütün qonaqların marağını və gur alqışını qazandı. Və ən əsası o oldu ki, Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlu Seymur Qasımzadənin səsində nəzərə çarpan çalarları müsbət qiymətləndirmiş və ona bu sənəti davam etdirərək yeni uğurlar qazanmasını arzulamışdır.

Bəli... Həqiqi sənətkar öz qiymətini həmişə almalı və xalqın etimadını layiqincə doğrultmağa çalışmalıdır. Seymur Qasımzadənin bütün həyatı, amalı hər iki sahədə - fotoqrafiya və musiqi yaradıcılığında yeni-yeni axtarışlarla inkişaf etməkdir. Seymur ailə sahibidir, 2 övlad atasıdır. Ailə məsuliyyətini üzərində hiss edən Seymur sənət dünyasında gənclik əhval-ruhiyyəsindədir. Seymur kimi sənətkara gələcək arzularının həyata keçməsini arzulamaq bizlərin borcudur.



Səhifəni hazırladı: ELNARƏ

